Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 136 (7863) CÜMƏ, 22 iyun 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik

# Azərbaycan Qarabağa nəzarəti genişləndirir və gücləndirir



## İşğal edilmiş torpaqlarda strateji yüksəkliklər, yollar və hərbi təyinatlı ərazilər ard-arda Silahlı Qüvvələrimiz tərəfindən geri qaytarılır

**Azərbaycan Ordusu qısamüddətli hərbi əməliyyatla Şərur rayonu istiqamətində 11 min hektar torpaq sahəsini və Günnüt kəndini işğalçılardan azad etməklə düşmənə yenidən öz gücünü göstərdi.**

Digər strateji əhəmiyyətli yüksəklikləri də ələ keçirməklə ordumuz indi Yerevan-Gorus-Laçın yoluna tam nəzarət edir. Strateji əhəmiyyət kəsb edən yüksəkliklər silsiləsinin geri qaytarılması Azərbaycan üçün çox böyük önəm daşıyır. Naxçıvanın itirilmiş ərazilərinin geri qaytarılması həm də Azərbaycan Ordusunun yeni döyüş yüksəkliklərinə sahiblənməsi prosesini təmin edir. Bununla Azərbaycan dünyaya sübut edir ki, biz öz tarixi torpaqlarımızı mütləq geri qaytaracağıq. Belə vəziyyət isə erməniləri daha çox qorxudur.

### Laçın yolu artıq nəzarətdədir

İşğalçı ölkə növbəti ağır məğlubiyyətinə müxtəlif bəhanələrlə bəraət qazandırmaq istəyir. Amma erməni cəmiyyəti, hadisələri ayıq başla qiymətləndirən ermənilər sarsıdıcı məğlubiyyətlərini görür, etiraf edirlər. Xatırlatmaq yerinə düşərdi ki, Naxçıvanın Şərur rayonunun Günnüt kəndi və ətrafındakı mühüm strateji əhəmiyyətli yüksəkliklərin Əlahiddə Ümumqoşun Ordusunun əks-həmlə əməliyyatları ilə işğaldan azad edilməsi ordumuzun bu istiqamətdə daha əlverişli mövqelərə sahib olmasına imkan verib. Günnüt kəndi 26 ildən sonra ordumuz tərəfindən azad olunub. Ən vacibi Laçın yolu nəzarətə götürülüb.

İşğaldan azad edilən mühüm obyektlərdən biri Sovetlər Birliyi dönəmində Sədərək rayonunun Heydərabad qəsəbəsində fəaliyyət göstərən şərab zavodudur. Ordumuzun şəxsi heyəti həmin ərazini düşmən qüvvələrindən təmizləyərək strateji mövqelərdə postlar qurublar. Artıq əraziyə əsgərlərimiz nəzarət edirlər. Şərab zavodu və onun ətrafına ermənilər yüzlərlə mina basdırıblar. Hazırda ərazidə minatəmizləmə işləri həyata keçirilir və tam yararsız vəziyyətə salınan şərab zavodu tullantılardan təmizlənir.

### Əsgər payı ilə varlanan cinayətkar rejim

Bütün bunlar həm də işğalçı ölkənin daxilində çəkişmələrin geniş vüsət aldığı bir vaxta təsadüf edir. Belə ki, Ermənistanın müdafiə nazirinin keçmiş müavini, parlamentin deputatı, Qarabağda qəddarlığı ilə tanınan Manvel Qriqoryan ətrafında baş verənlər Ermənistanda vəziyyətin getdikcə daha gərgin xarakter almaqda olduğunu göstərir. Onun ifşa olunan cinayətləri ermənilərin özlərində də heyrət doğurub. Azərbaycanlıların qanına susayıb onları güllələbaran edən bu adam öz əsgərlərinin də malına susayıb onlara ayrılan azuqələri mənimsəyib, bazarda satdıraraq özü üçün milyonlar əldə edib. Ermənistanda hamı bilir ki, Serj Sarkisyanın komandasında cinayət törətməyən məmur yoxdur. Çünki onun idarəetmə sistemi bütünlüklə korrupsiyalaşmış dəstədən ibarət idi.

Böyük vədlərlə hakimiyyətə gələn baş nazir Paşinyan isə ölkəni böhrandan qurtarmaq iqtidarında deyil. Siyasi savadı və dünyagörüşü ona imkan vermir ki, ölkəni acınacaqlı vəziyyətdən çıxarmağın həqiqi yollarını, iqtisadi-siyasi problemlərin həllini tapsın. Buna görə də köhnələrin iç üzünü açmaqla cəmiyyəti ələ almağı düşünür. Lakin bununla əksinqilab havasını gücləndirir.

### Erməni generalları heyvanları insanlardan üstün tuturlar

Məlumat üçün bildirək ki, Yerevan məhkəməsi artıq qanunsuz silah saxlamaqda və başqasının əmlakını mənimsəməkdə ittiham olunan Manvel Qriqoryanı həbs edib. Ermənistan parlamenti də deputat Qriqoryana qarşı cinayət təqibinə başlamağa icazə verib.

Qeyd edək ki, bu günlərdə Ermənistan Milli Təhlükəsizlik Xidməti Manvel Qriqoryanın malikanəsində aparılmış axtarışa dair maraqlı videokadrlar yayıb. Burada Qriqoryanın 2016-cı ilin aprel döyüşləri zamanı Qarabağda erməni əsgərlərinə göndərilən ərzaq yardımlarını, o cümlədən Rusiya ermənilərinin göndərdiyi avtomobil texnikasını da talayıb anbarlarına yığdığı əks olunur. Milli Təhlükəsizlik Xidməti bildirir ki, general istirahət zonasını silah anbarına, onlarla retro və müasir avtomobilin, çoxsaylı motosikllərin, qarda özüyeriyən maşınların, Qarabağa göndərilmək üçün nəzərdə tutulan UAZ və təcili yardım avtomobillərinin qarajına çevirib. Axtarış zamanı M.Qriqoryanın malikanəsinin anbarlarından əsgər paylarının qablaşdırıldığı çoxsaylı qutular tapılıb. Qutuların içərisinə qoyulan məktublardan bəlli olur ki, onları 2016-cı ilin aprel döyüşləri zamanı erməni məktəbliləri toplayıb və Qarabağa göndərmək üçün onun başçılıq etdiyi "Yerkrapa" könüllülər birliyinə təhvil veriblər. Lakin general bu əsgər paylarını anbarlarına yığıb və onları şəxsi zooparkındakı yırtıcılara - ayılara, pələnglərə yedirdirmiş. Yəni heyvanları insanlardan üstün tuturmuş.





Ardı 4-cü səh.

## Şamaxı rayonunun Dəmirçi kəndini İsmayıllı rayonunun Lahıc qəsəbəsi ilə birləşdirən Dəmirçi-Lahıc avtomobil yolunun tikintisinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Şamaxı rayonunun Dəmirçi kəndini İsmayıllı rayonunun Lahıc qəsəbəsi ilə birləşdirən, ümumi uzunluğu 22 kilometr olan Dəmirçi-Lahıc avtomobil yolunun tikintisinin davam etdirilməsi məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 13,7 milyon (on üç milyon yeddi yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 iyun 2018-ci il*

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Cənab Prezident!

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə zati-alinizə Tunis xalqı adından və şəxsən öz adımdan səmimi təbriklərimi çatdırıram.

Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Azərbaycan xalqına davamlı inkişaf və rifah arzulamaqdan böyük məmnunluq hissi keçirirəm.

Mən, həmçinin fürsətdən istifadə edərək, dost xalqlarımızın qarşılıqlı marağı naminə ikitərəfli münasibətlərimizi daha da inkişaf etdirmək üçün zati-alinizlə birgə işləmək arzusunda olduğumu bildirməkdən məmnunluq duyuram.

*Hörmətlə,*

***Beji Kaid əs-SEBSİ,***
***Tunis Respublikasının Prezidenti***

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Cənab Prezident!

Azərbaycanın milli bayramı - Respublika Gününün yaratdığı xoş fürsətdən istifadə edərək Sizə səmimi təbriklərimi çatdırıram.

Sizə möhkəm cansağlığı, ölkənizə əmin-amanlıq və firavanlıq arzulayıram.

Zati-aliləri, xahiş edirəm, ən yüksək ehtiramımı qəbul edin.

*Hörmətlə,*

***Pol BİYA,***
***Kamerun Respublikasının Prezidenti***

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Xahiş edirəm, yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə mənim səmimi təbriklərimi və ən xoş arzularımı qəbul edəsiniz. Sizə və yeni hökumətinizə gələcək fəaliyyətinizdə uğurlar arzulayıram. Əminəm ki, Estoniya və Azərbaycan arasında mükəmməl münasibətlər və əməkdaşlıq ölkələrimizin mənafeyi naminə möhkəmlənməkdə və uğurla inkişaf etməkdə davam edəcəkdir. Həmçinin Avropa İttifaqı və Azərbaycan arasında əlaqələrin qarşılıqlı maraq və birgə dəyərlər əsasında möhkəmlənməsinə ümid edirəm.

Zati-aliləri, xahiş edirəm, ən yüksək ehtiramımı qəbul edəsiniz.

*Hörmətlə,*

***Yuri RATAS,***
***Estoniya Respublikasının Baş naziri***

# Azərbaycan-Əlcəzair əlaqələrinin inkişafı üçün yaxşı imkanlar var

Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov iyunun 21-də Əlcəzair Xalq Demokratik Respublikasının ədliyyə naziri Tayeb Louhun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan ilə Əlcəzair arasında yaxşı əlaqələrin mövcud olduğunu deyən Baş nazir Novruz Məmmədov bu səfərin münasibətlərimizin daha da genişləndirilməsi baxımından böyük əhəmiyyət daşıdığını qeyd edib.

Novruz Məmmədov yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini vurğulayıb və ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyini diqqətə çatdırıb.

Azərbaycanın Baş naziri iqtisadiyyatın bir sıra istiqamətlərində, o cümlədən energetika, turizm, sənaye və digər sahələrdə əlaqələrin daha da inkişafı üçün yaxşı imkanların olduğunu bildirib.

Hüquqi sahədə inkişaf edən münasibətlərimizdən danışan Baş nazir Azərbaycanın və Əlcəzairin Ədliyyə nazirlikləri arasında ötən il imzalanmış Anlaşma Memorandumunun qarşılıqlı fəaliyyətin genişləndirilməsinə yaxşı imkan yaratdığını söyləyib. Novruz Məmmədov Əlcəzair nümayəndə heyətinin bu səfəri çərçivəsində iyunun 21-də imzalanmış ekstradisiya haqqında dövlətlərarası müqavilənin ölkələrimiz arasında hüquqi bazanın möhkəmlənməsi baxımından önəmini qeyd edib.



Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə məlumat verən Baş nazir Novruz Məmmədov deyib ki, beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimizin bir-birini dəstəkləməsi böyük önəm kəsb edir.

Əlcəzairin ədliyyə naziri Tayeb Louh Bakıya səfərindən məmnunluğunu ifadə edib, göstərilən qonaqpərvərliyə görə Azərbaycan hökumətinə təşəkkürünü bildirib. O, Azərbaycanda uğurla keçirilən prezident seçkilərinə və dövlət başçısı İlham Əliyevin seçkilərdə qazandığı inamlı qələbəyə görə təbriklərini çatdırıb.

Tayeb Louh Əlcəzair nümayəndə heyətinin Azərbaycana səfərinin və imzalanmış müqavilənin ölkələrimiz arasında əlaqələrin inkişafına təkan verəcəyinə əminliyini bildirib.

Görüşdə əlaqələrin inkişafı və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# İqtisadiyyatın əsas sahələri üzrə artım davam edir

*Sənayenin qeyri-neft sektorunda məhsul istehsalının artımı 8 faizə yaxınlaşır*

Cari ilin 5 ayı ərzində ölkə üzrə 29 milyard 294 milyon manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da ötən ilin eyni dövrünə nisbətən 1,1 faiz çoxdur. Yanvar-may aylarında iqtisadiyyatın qeyri-neft sektorunda ÜDM istehsalı 1,9 faiz artmış, neft sektorunda eyni səviyyədə qalmışdır. Bu barədə Dövlət Statistika Komitəsinin sözügedən dövr üzrə ölkənin sosial-iqtisadi inkişafının makroiqtisadi göstəricilərini əks etdirən hesabatında məlumat verilib.

Hesabatda bildirilir ki, 5 ay ərzində istehsal olunmuş əlavə dəyərin 48,8 faizi sənaye, 9,9 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri, 6,7 faizi tikinti, 6,1 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,5 faizi kənd və meşə təsərrüfatları, balıqçılıq, 2,6 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,6 faizi informasiya və rabitə, 13,8 faizi digər sahələrin payına düşmüşdür. Bu dövrdə məhsula və idxala xalis vergilər ÜDM-in 7 faizini təşkil etmişdir. Əhalinin hər nəfərinə düşən ÜDM-in həcmi 2991,1 manata bərabər olmuşdur.

Hesabat dövründə ölkədə 19,2 milyard manatlıq (keçən ilin eyni dövründəkindən 0,7 faiz çox) sənaye məhsulları istehsal edilmişdir. Sənayenin qeyri-neft sektorunda məhsul istehsalı 7,8 faiz artmış, neft sektorunda 0,3 faiz azalmışdır. Məhsulların 73,2 faizi mədənçıxarma, 22 faizi emal, 4,2 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,6 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal edilmişdir. Mədənçıxarma sektoru üzrə neft hasilatında 1,2 faiz artım, əmtəəlik qaz hasilatında 8,2 faiz azalma qeydə alınmışdır.

Ardı 3-cü səh.

# Azərbaycan parlamenti nümayəndə heyətinin Çinə səfəri davam edir



Ümumçin Xalq Nümayəndələri Yığıncağının sədri Li Canşunun dəvəti ilə Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Əsədovun rəhbərliyi ilə parlament nümayəndə heyətinin Çin Xalq Respublikasına rəsmi səfəri davam edir.

AZƏRTAC xəbər verir ki, iyunun 21-də nümayəndə heyəti Şərq aləminin nadir tarixi-memarlıq və maddi-mədəniyyət abidələrindən hesab olunan Böyük Çin səddini ziyarət edib. Bildirilib ki, insan əli ilə yaradılmış çox heyrətamiz möcüzələrdən olan Çin səddinin inşası e.ə. III əsrdə başlayıb və bir neçə yüz il davam edib. Çinin şərqindən qərbinə doğru uzanan Böyük Çin səddinin tamaşasına dünyanın müxtəlif ölkələrindən hər il milyonlarla turist gəlir.

UNESCO-nun Dünya İrsi siyahısına daxil olan Böyük Çin səddi ölkənin ən böyük və ən möhtəşəm sənət abidəsi olmaqla yanaşı, Çin xalqının qürur mənbəyi, habelə ölkənin tarixi rəmzi hesab edilir.

# Milli Məclisdə Ombudsmanların XV Bakı Beynəlxalq Konfransının iştirakçıları ilə görüş keçirilib



İyunun 21-də Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərov Ombudsmanların XV Bakı Beynəlxalq Konfransının iştirakçıları ilə görüşüb.

Ziyafət Əsgərov Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili Elmira Süleymanovanın təşəbbüsü ilə hər il ölkəmizdə ombudsmanların beynəlxalq konfransının keçirilməsini təqdir edib. O bildirib ki, builki konfrans 18 iyun - Azərbaycan Respublikasında İnsan Hüquqları Günü, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100, ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 və Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin qəbul edilməsinin 70 illiyi kimi mühüm hadisələrlə üst-üstə düşür.

Milli Məclis Sədrinin birinci müavini qeyd edib ki, Azərbaycanda insan hüquqlarının qorunması və onların icra mexanizmlərinə xüsusi diqqət yetirilir. Azərbaycan dövlət müstəqilliyini elan etdikdən sonra bir sıra beynəlxalq təşkilatların tamhüquqlu üzvü olub. Azərbaycan insan hüquqları ilə bağlı öhdəliklərinin yerinə yetirilməsinə xüsusi əhəmiyyət verir. 1995-ci ildə Azərbaycanın ilk milli Konstitusiyası qəbul edildi. Bu Konstitusiyanın üçdəikisi insan hüquqlarına həsr olunub. Eyni zamanda, insan hüquqlarının reallaşdırılması mexanizminin daha da təkmilləşdirilməsi ilə bağlı Ombudsman İnstitutu təsis edilib. Həmçinin müvafiq dövlət proqramları, qanunlar qəbul olunub.

Ziyafət Əsgərov hüquq bərabərliyinin hazırda bütün dünyada çox vacib məsələlərdən biri olduğunu deyib. Qeyd edib ki, hələ 1918-ci ildə Azərbaycanda demokratik cümhuriyyət qurulanda ilk olaraq hüquq bərabərliyi əsas amil, prinsip kimi götürülüb, qadınlarla kişilərə bərabər hüquqlar verilib.

Azərbaycanda "Gender bərabərliyi haqqında" qanunun qəbul edildiyini söyləyən Milli Məclis Sədrinin birinci müavini diqqətə çatdırıb ki, ölkəmizdə irqindən, dini mənsubiyyətindən, cinsindən asılı olmayaraq bütün vətəndaşlara bərabər münasibət sərgilənir. İstər parlamentdə, istər dövlət idarəetməsində, istərsə də bələdiyyələrdə qadınların iştirak çəkisi artmaqdadır.

Görüşdə qonaqlara Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə də məlumat verilib. Ziyafət Əsgərov, həmçinin konfrans iştirakçılarına Azərbaycan parlamentinin yaranma tarixindən və fəaliyyətindən danışıb.

Görüşdə iştirak edən Elmira Süleymanova Ombudsman İnstitutunun Milli Məclislə sıx əməkdaşlığından bəhs edib. Bildirilib ki, Azərbaycanda insan hüquqlarının təmin edilməsi ilə bağlı bir çox sənədlər qəbul olunub. Parlamentdə müzakirəyə çıxarılan bu qanun layihələri ilə bağlı onun fikirləri öyrənilir. Ombudsman tərəfindən il ərzində həyata keçirilən tədbirlər barədə Milli Məclisdə hesabat verilir.

Elmira Süleymanova Azərbaycanda insan hüquqlarının müdafiəsi sahəsində təmsil etdiyi qurum tərəfindən görülən işlər, əldə edilən nailiyyətlərdən danışıb.

Konfrans iştirakçıları səmimi görüşə görə minnətdarlıqlarını ifadə ediblər. Onlar Azərbaycan xalqının qonaqpərvərliyini və Ombudsmanların XV Bakı Beynəlxalq Konfransının yüksək səviyyədə təşkil olunduğunu xüsusi qeyd ediblər. Qonaqlar ölkələr arasında əlaqələrin genişləndirilməsinin vacibliyini söyləyiblər.

Görüşdə Ziyafət Əsgərov qonaqları maraqlandıran sualları ətraflı cavablandırıb.

***AZƏRTAC***
***Foto A.MƏMMƏDOVUNDUR***

# Əlcəzair nümayəndə heyəti Milli Məclisdə olub

İyunun 21-də Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərov ölkəmizdə səfərdə olan Əlcəzairin ədliyyə naziri Tayeb Louh ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Ziyafət Əsgərov Azərbaycanla Əlcəzairin tarixi dostluq münasibətlərinin ölkələrimizin müxtəlif sahələrdə əməkdaşlığı üçün yaxşı imkanlar yaratdığını deyib. Bildirib ki, Azərbaycan Əlcəzairlə münasibətlərin dərinləşməsində maraqlıdır. Ölkələrimizin beynəlxalq qurumlarda qarşılıqlı əməkdaşlığı da yüksək səviyyədədir. Əlcəzair Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsində hər zaman Azərbaycanın haqlı mövqeyini dəstəkləyir. Ölkəmizin dünyaya, o cümlədən İslam aləminə verdiyi töhfələrdən danışan Milli Məclis sədrinin birinci müavini onu da diqqətə çatdırıb ki, işğalçı Ermənistan zəbt etdiyi Azərbaycan ərazilərində dini, tarixi abidələrimizi dağıdıb, talan edib. Əlcəzairin ədliyyə naziri Tayeb Louh Bakıya səfərinin əhəmiyyətindən danışaraq bildirib ki, münasibətlərin dərinləşməsi hər iki ölkənin marağındadır. Dövlət başçıları səviyyəsində bu məsələyə yüksək diqqət ayrılır.

Qonaq qeyd edib ki, son zamanlar ölkələrimiz arasında məhkəmə-hüquq sahəsində imzalanan sənədlər bu əməkdaşlığın faydalı olacağından xəbər verir. O, parlamentlərarası münasibətlərin inkişafı üçün parlamentlərarası dostluq qruplarının yaradılmasının önəmini vurğulayıb.

Söhbət zamanı mövcud münaqişələrin həlli məsələsindən danışan nazir diqqətə çatdırıb ki, ölkəsi bu cür problemlərin beynəlxalq hüququn norma və prinsipləri əsasında həllinin tərəfdarıdır və bu mövqe dəyişməz olaraq qalır.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Dövlətin və xalqın mənafeyinə xidmət edən dövlət qulluğu

*23 iyun dövlət qulluqçularının peşə bayramı günüdür.*
*AZƏRTAC Azərbaycan Respublikası Prezidenti Administrasiyasının şöbə müdiri, Dövlət Qulluğunu İdarəetmə Şurasının üzvü Süleyman İsmayılovun bu münasibətlə məqaləsini oxucuların diqqətinə çatdırır.*



Qədim və zəngin mədəniyyətə, böyük dövlətçilik tarixinə malik olan Azərbaycanın keçmişinə və bu gününə nəzər saldıqda, xalqımızın milli-mənəvi dəyərlərini yaşatmaqla yanaşı, dövlətçilik ənənələrini də qoruyub saxladığının, daim inkişaf etdirdiyinin şahidi oluruq. **Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, bütün ictimai-siyasi quruluşlardan asılı olmayaraq, xalqımız bizim milli, dini dəyərlərimizi qoruyub və biz dərin milli-mənəvi köklər üzərində müasir dövlət qururuq, o dövlət ki, indi hər bir vətənpərvər insan öz ölkəsi ilə fəxr edir.**

Tarixin keşməkeşli və şərəfli yollarında müəyyən dövrlərdə dövlətçiliyini müvəqqəti itirməsinə baxmayaraq, Azərbaycan xalqının dövlətçilik ruhu həmişə yüksək olub və öz müstəqilliyi uğrunda mübarizəsini heç vaxt dayandırmayıb. Məhz bunun nəticəsidir ki, çar imperiyasının süqutundan sonra 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yaradılıb və bugünkü Azərbaycanımız müsəlman Şərqində ilk demokratik dövlətin varisidir. Xalq Cümhuriyyətinin bolşevik işğalına məruz qalanadək mövcud olan qısa dövrdəki fəaliyyəti bu gün hər birimizin qəlbində qürur hissi doğurur.

Azərbaycan Xalq Cümhuriyyəti mövcud olduğu 23 ay ərzində sübut etdi ki, xalqımızın dövlətçilik ənənələri yaşayıb və yaşayacaqdır. Böyük iqtisadi və siyasi təzyiqlərə, yaranmış siyasi vəziyyətdən istifadə edərək erməni millətçilərinin törətdikləri təcavüzkar hərəkətlərə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti qısa müddətdə hər bir müstəqil dövlət üçün zəruri olan məsələləri həll edib, 200-dən artıq qanun qəbul etməklə müstəqil dövlətin qanunvericilik bazasını yaradıb, bir çox Avropa ölkələrindən əvvəl qadınlara seçki hüququ verib, Azərbaycan Ordusunu və digər mühüm dövlət qurumlarını təsis edib, elm, mədəniyyət sahəsində böyük işlər görüb.

Bir əsrdə iki dəfə müstəqilliyini bərpa etmiş Azərbaycan xalqının dövlət quruculuğu sahəsində gördüyü işlər hər cəhətdən təqdirəlayiqdir. Xalq Cümhuriyyəti Rusiya imperiyasının qalıqları üzərində qurulmuşdusa, ikinci müstəqil Azərbaycan dövləti Sovetlər İttifaqının dağılması nəticəsində yaradılıb. Azərbaycanda dövlət quruculuğunun inkişaf mərhələlərinə nəzər saldıqda, hər iki mərhələdə böyük sınaqlarla üzləşməsinə baxmayaraq, ölkəmizin bu sınaqlardan uğurla çıxdığının, xalqımızın böyük siyasi və dövlət xadimlərinin, ziyalılarının yüksək vətənpərvərlik nümunəsi göstərdiklərinin şahidi oluruq.

**Bugünkü qüdrətli Azərbaycanın qurulmasında, inkişafında və müstəqilliyimizin əbədiləşdirilməsində misilsiz xidmətləri olan tarixi şəxsiyyətlərimizdən danışarkən, ilk növbədə, ulu öndər Heydər Əliyevin gördüyü işləri, Azərbaycan dövlətçiliyinin dəyərli ənənələrinin formalaşması üçün yaratdığı maddi və mənəvi əsasları xüsusi vurğulamalıyıq.**

Azərbaycan dövlətinin bugünkü nailiyyətləri təkcə bizim üçün deyil, gələcək nəsillər üçün də əvəzsiz bir sərvətdir. Xalqımızın bu qətiyyəti və iradəsi beynəlxalq aləmdə də böyük rəğbətlə qarşılanır. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə bu il mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin keçirdiyi rəsmi qəbulda müstəqilliyimizin bərpasından sonrakı dövrdə əldə olunan nailiyyətlərimiz dərindən təhlil edilib, bu nailiyyətlərin kökündə Azərbaycan xalqının istedadı ilə yanaşı, ölkədə mövcud olan siyasi sistemin və demokratik şəraitin də rolu xüsusi vurğulanıb. **Prezident İlham Əliyev fəxrlə qeyd edib ki, Azərbaycanın bugünkü nailiyyətlərinin qazanılmasında Heydər Əliyev ideyalarının, onun yaratdığı idarəçilik məktəbinin və bu məktəbi keçmiş kadrların böyük rolu olub.**

Azərbaycan dövlətinin müstəqillik illərində qazandığı nailiyyətlərdən danışarkən, ilk növbədə, onun iqtisadi qüdrətini əks etdirən faktlardan bəhs etməliyik. Bu baxımdan dünya ölkələrinin iqtisadi inkişafını və inkişaf perspektivlərini əks etdirən, geniş və dərin təhlilləri ilə çox yüksək nüfuz qazanmış Dünya İqtisadi Forumunun hər il elan edilən hesabatlarına nəzər salmaq kifayətdir. 1971-ci ildən fəaliyyət göstərən, dünyanın ən mötəbər reytinq təşkilatlarından biri sayılan Davos Forumunun nəticələri ən obyektiv nəticələr hesab olunur.

Hər il bu forumun sessiyalarında fəal iştirak edən Azərbaycan Prezidenti İlham Əliyevin səyləri sayəsində ölkəmizin iqtisadi göstəriciləri dünya ictimaiyyətinin diqqətinə çatdırılır. Sevindirici haldır ki, dünyanın 137-dən çox ölkəsi arasında Azərbaycanın tutduğu yer ildən-ilə yüksəlir. **Əgər 2006-cı ildə Azərbaycan rəqabətqabiliyyətliliyinə görə 62-ci yerdə idisə, 2017-2018-ci illər üzrə rəqabətqabiliyyətlilik reytinqində ölkəmiz 35-ci yerə yüksəlib.** Maraqlıdır ki, bu göstərici üzrə Azərbaycan Polşa, Litva, İtaliya, Bolqarıstan, Türkiyə, Latviya, Qazaxıstan, Macarıstan, Gürcüstan, İran və bir sıra başqa ölkələri geridə qoyub və rəqabətqabiliyyətlilik göstəricisi üzrə MDB ölkələri arasında birinci yerdə qərarlaşıb.

Azərbaycanın iqtisadi, siyasi, mədəni və idman uğurları haqqında danışarkən bütün bu nailiyyətlərin qazanılmasında müstəqillik illərində dövlət idarəçiliyinin təmin edilməsi üçün qəbul olunan qanunvericilik bazasının əhəmiyyətini xüsusi qeyd etmək lazımdır.

**Ulu öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illərdən başlayaraq son 26 ildə Azərbaycanda yüzlərlə qanun, fərman və sərəncam imzalanıb, qərarlar qəbul edilib, 2000-ci il iyulun 21-də isə Azərbaycanda dövlət qulluğunun təşkilində yeni dövr açan "Dövlət qulluğu haqqında" qanun imzalanıb.** Qəbul edildiyi gündən indiyədək bu qanundan irəli gələn bir çox normativ hüquqi aktlar imzalanıb, eyni zamanda, ölkə qanunvericiliyinin müntəzəm təkmilləşdirilməsindən irəli gələn mühüm dəyişiklik və əlavələr edilərək son dərəcə mükəmməl bir qanun kimi formalaşıb. Təkcə bu faktı qeyd etmək kifayətdir ki, "Dövlət qulluğu haqqında" qanuna onun qəbul edildiyi gündən indiyədək 170 dəyişiklik və əlavə edilib. Bu dəyişiklik və əlavələr qanunun təkmilləşməsinə xidmət edib və qətiyyətlə demək olar ki, bu qanun postsovet məkanında ən mükəmməl qanunlardan biridir.

"Dövlət qulluğu haqqında" qanuna uyğun olaraq qəbul edilmiş aktları sadalayarkən dövlət qulluqçularının etik davranış qaydaları, icbari sığortası, pensiya təminatı və digər məsələlər haqqında qanunları qeyd etmək lazımdır. Dövlət qulluğu məsələlərinə dair indiyədək onlarla qanun, fərman, sərəncam və bir çox digər normativ xarakterli aktlar qəbul edilib ki, bunlar da bu gün respublikada idarəçiliyin təşkilində mühüm rol oynayır.

**Ümumiyyətlə, dövlət quruculuğu məsələləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin daim diqqət yetirdiyi sahələrdən biridir. Bu məsələləri idarəetmənin müxtəlif sahələrini əhatə edən normativ hüquqi aktlarla tənzimləyən Azərbaycan Prezidenti son 5 il 5 ay ərzində dövlət quruculuğu məsələlərinə dair 420-dən artıq fərman və sərəncam imzalayıb.**

Bir mühüm məsələni nəzərə almaq lazımdır ki, dövlət qulluğu bəzilərinin düşündüyü kimi, təkcə kreslo tutmaq, geniş səlahiyyətlər əldə etmək kimi başa düşülməməlidir. Əksinə, dövlət qulluqçularının çiyninə ağır yük düşür və bunu hər kəs gündəlik təcrübəsində görür və hiss edir. İlk baxışda onların sayı çox görünsə də, əslində, heç də belə deyildir. 2018-ci il yanvarın 1-nə olan məlumata görə, hazırda ölkədə dövlət qulluqçularının sayı 29,3 min nəfərdir ki, onların 28,8 faizini qadınlar təşkil edir.

Dövlət qulluqçularının yaş qrupları üzrə bölgüsü göstərir ki, bu sahədə çalışanların orta yaş həddi 44 ildir. Bu rəqəmlər gənclər üçün zəngin təcrübə məktəbindən bəhrələnmək imkanı olduğunu sübut edir.

Ümumilikdə ölkənin idarə olunmasında və inkişafının gücləndirilməsində ciddi rol oynayan dövlət qulluqçularının sayı heç də çox deyildir. Respublikada fəaliyyət göstərən dövlət orqanlarında çalışan dövlət qulluqçuları Azərbaycanın məşğul əhalisinin çox cüzi bir hissəsini - 0,6 faizini təşkil edir.

Hazırda dövlət qulluğunda çalışanların bilik və bacarığı, peşəkarlığı imkan verir ki, respublikada dövlət qulluğunun təşkili yüksək səviyyədə həyata keçirilsin. Bununla yanaşı, dövlət qulluqçularının hazırlıq səviyyəsi daim diqqət mərkəzindədir. Ölkə iqtisadiyyatının inkişafında olduğu kimi, kadr məsələlərinin həllində də düşünülmüş proqramlar əsasında işlər davam etdirilir. Bir məsələni vurğulamaq lazımdır ki, dövlət qulluğunun təşkilində kadrların peşəkarlığı, səriştəliliyi həmişə vacib olub, bu gün də vacib məsələlərdən biri sayılır və bunun üçün ən müxtəlif vasitələrdən geniş istifadə olunur.

Respublikada fəaliyyət göstərən Dövlət İdarəçilik Akademiyası, həmçinin müxtəlif nazirliklər üçün bilavasitə kadrlar hazırlayan sahə akademiyaları, eləcə də ali məktəblərin müvafiq fakültələri hər il Azərbaycanın kadr ehtiyatlarını zənginləşdirir. **Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə son illərdə "Xaricdə təhsil üzrə Dövlət Proqramı" çərçivəsində dünyanın aparıcı universitetlərinə təhsil almaq üçün göndərilən tələbə, magistr və doktorantura səviyyələrində təhsil alan gənc kadrların irəli çəkilməsinə ciddi əhəmiyyət verilir.** Sevindirici haldır ki, dünyanın aparıcı universitetlərinə göndərilən şəxslərin 63 faizi magistratura və doktorantura səviyyələrində təhsil alan gənclər olub. Son illərdə Azərbaycan iqtisadiyyatının sürətli inkişafı və rəqabətqabiliyyətli sənaye sahələrinin yaradılması müasir biliklərə yiyələnmiş mütəxəssislərin, o cümlədən idarəçilik kadrlarının yetişdirilməsini zəruri edir.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli Sərəncamı ilə "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" təsdiq edildikdən sonra 12 əsas istiqamət üzrə hazırlanmış yol xəritələri dövlət başçısının 2016-cı il 6 dekabr tarixli sərəncamı ilə təsdiq edilib və hazırda həmin xəritələrin yerinə yetirilməsi üçün ardıcıl və intensiv iş aparılır.

Təbiidir ki, böyük perspektivli proqram və layihələrin həyata keçirilməsi, müasir dünya standartlarına cavab verən texnologiyaların tətbiqi bütün sahələrdə çox yüksək hazırlıqlı mütəxəssislərin yetişdirilməsini tələb edir. Buna görə də Azərbaycan Prezidenti ölkədə kadr hazırlığı məsələlərinə həmişə böyük diqqət yetirir və bunu respublikanın gələcək inkişafı üçün olduqca vacib hesab edir. 2017-ci il aprelin 16-da qeyri-neft ixracatçılarının respublika müşavirəsində Azərbaycan Prezidenti bunu xüsusi vurğulayaraq deyib: **"Kadr hazırlığına xüsusi diqqət göstərilməlidir. Biz ixrac üzrə mütəxəssislər hazırlamalıyıq. Ümumiyyətlə, kadr hazırlığı indi qarşımızda qoyulan ən vacib məsələlərdən biridir. Çünki ölkə inkişaf edir, yeni müəssisələr yaradılır və bu müəssisələrdə fəaliyyət göstərən bu kadrlar hazırlıqlı olmalıdır".**

Azərbaycanın bütün sahələrdə yetişən və formalaşan gənc kadrlarına artıq respublikanın əksər dövlət orqanlarında öz bacarıq və qabiliyyətlərini göstərmək imkanı yaradılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dövlət qulluqçularına qarşı həmişə yüksək tələbkarlıq göstərir və onlardan xalqın xidmətçiləri kimi öz vəzifə borclarını şərəf və ləyaqətlə yerinə yetirməyi tələb edir, bütün tədbirlərdə və görüşlərdə dövlət qulluqçularına nümunə göstərir. Cənab Prezident dövlət qulluğunda şəffaflığın, ictimai nəzarətin artırılmasının vacibliyini dönə-dönə qeyd edir, dövlət qulluğunda nöqsanlara yol verən və bu şərəfli ada xələl gətirən şəxslərə qarşı çox ciddi tədbirlər görülməsini tələb edir.

Azərbaycan Prezidenti vaxtaşırı yerlərə etdiyi səfərlər vasitəsilə özünün vəzifəyə təyin etdiyi rəhbər şəxslərin fəaliyyətinə nəzarət edir və onların gördüyü müsbət işləri qiymətləndirməklə yanaşı, yol verdikləri nöqsanların da aradan qaldırılmasını ciddi tapşırır. Cənab Prezident bu barədə danışarkən deyir: **"Mən regionlarda çox tez-tez oluram. İlk vaxtlar yerli rəhbərlər fikirləşirlər ki, Prezident gəldi, tapşırıqlar verdi, bir də haçan buraya gələcək. Mən isə yarım ildən sonra bir də, daha yarım ildən sonra bir də gedirdim. Yerlərdəki rəhbərlər başa düşdülər ki, qərarları yerinə yetirmək və öz işini Prezident oraya səfər edəndən-edənə deyil, hər gün görmək lazımdır. Ona görə bu cür canlı ünsiyyət mənə əlimi xalqın nəbzində saxlamaq, nəyin insanları narahat etdiyini bilmək və əlbəttə, qərarların yerinə yetirilməsinə nəzarət etmək imkanı verir. Düşünürəm ki, qarşıdakı illərdə bizim fəaliyyətimizin əsas istiqaməti idarəetmə sisteminin təkmilləşdirilməsi olacaq".**

Bu gün cəsarətlə demək olar ki, əslində, bu islahatlar həmişə aparılıb və aparılmaqdadır. Sadəcə, son iki il ərzində bu islahatların aparılması daha geniş vüsət alıb. Buna misal olaraq son vaxtlar Prezidentin fərman və sərəncamları ilə yaradılmış yeni dövlət qurumlarını, həmçinin onların strukturlarının yenidən formalaşdırılmasını qeyd etmək olar.

Ölkədə idarəetmə sistemində aparılan islahatlardan danışarkən Azərbaycan Respublikasının vitse-prezidentləri təsisatının və onların xidmətlərinin yaradılmasını xüsusi vurğulamaq lazımdır. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın və onun xidmətinin fəaliyyəti respublikada idarəetmə sahəsində yeni dəyişikliklərin əsasını qoyub və hazırda uğurla davam etdirilməkdədir.

Azərbaycanda dövlət qulluğunun lazımınca təşkili üçün həm siyasi rəhbərliyin iradəsi, həm onun səmərəli həyata keçirilməsi üçün real şərait, maddi və mənəvi baza, intellektual potensial vardır. Dövlət qulluğunun əsasını təşkil edən mühüm cəhətlərin - səmərəliliyin, xalqa xidmətin, habelə şəffaflığın və hesabatlılığın tətbiqi cənab Prezident tərəfindən həmişə önə çəkilir.

Azərbaycan dövlətinin və onun rəhbərliyinin siyasətinin mərkəzində Azərbaycan vətəndaşının, onun sosial vəziyyətinin, güzəranının təmin edilməsi əsas yer tutur. Cənab Prezident respublika Nazirlər Kabinetinin iclasında deyib: **"Hər bir dövlət məmurunu işə təyin edəndə verdiyim tapşırıqlar arasında bunlar da var ki, məmur təvazökar olmalı, xalqa xidmət etməli, xalqla bir yerdə olmalı, özünü xalqdan yuxarı tutmamalıdır. Məmur özü və onun ailə üzvləri təkəbbürlü davranmamalıdırlar. Ancaq buna baxmayaraq, bəzən hələ də görürük ki, həm məmurlar özlərini apara bilmirlər, kobud səhvlər buraxırlar, həm də ailə üzvləri hesab edirlər ki, onların xüsusi imtiyazı var. Azərbaycanda heç kimin heç bir imtiyazı yoxdur... Heç kimə heç bir güzəşt edilmir və mənim son qərarlarım onu bir daha təsdiqləyir. Hamı nəticə çıxarsın".**

Dövlət başçısı respublikada dövlət qulluğunun, bütövlükdə idarəetmə sisteminin təkmilləşdirilməsi üçün müntəzəm və ardıcıl addımlar atır. Dövlət qulluğunda şəffaflığın təmin edilməsində və mənfi halların aradan qaldırılmasında institusional tədbirlərin görülməsini zəruri hesab edir və buna hər vasitə ilə dəstək olur. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti yanında yaradılan Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyəti təqdirəlayiqdir. Azərbaycan Prezidenti bunu ictimai xidmətlər sahəsində böyük bir inqilab adlandıraraq deyir: **"ASAN xidmət" Azərbaycan brendidir, Azərbaycanın intellektual məhsuludur. O məhsul ki, bu gün biz onu xaricə ixrac edirik. Bir neçə ölkə "ASAN xidmət"lə maraqlanır. Bizim "ASAN xidmət" bir neçə ölkə ilə sənədlər imzalayıb və artıq bir neçə ölkədə "ASAN xidmət" mərkəzləri yaradılır".**

Dövlət qulluqçularının öz peşə bayramlarını qeyd etdiyi bu günlərdə hər il olduğu kimi, bu sahədə görülən işlərə yekun vurulur, dövlət qulluğunun daha da təkmilləşdirilməsi və yaxşılaşdırılması üçün tədbirlər həyata keçirilir.

Bu gün dünya miqyasında ən sabit ölkələrdən biri olan Azərbaycan əldə etdiyi uğurlara - iqtisadiyyatını 3,2 dəfə artırmaqla dünya miqyasında analoqu olmayan inkişaf nümunəsi göstərdiyinə, digər iqtisadi göstəricilərinə, həmçinin qeyri-neft sektorunun inkişafına, humanitar sahədəki nailiyyətlərinə görə həqiqətən fəxr edə bilər. Prezident İlham Əliyevin dediyi kimi, bu, **"görülən işlərin, aparılan düzgün siyasətin, xalqımızın istedadının, xalqla iqtidar arasında birliyin nəticəsidir. Bu gün hansı sahəyə baxsan inkişaf var, tərəqqi var və gələcək dinamik inkişaf üçün aydın baxışlar var. Bu gün müstəqil Azərbaycan hər bir Azərbaycan vətəndaşı üçün qürur mənbəyidir".**

Azərbaycan Respublikasının Prezidenti görülən işləri fəxrlə qeyd etməklə yanaşı, daim irəli baxır, ölkəmizin gələcək inkişafının istiqamətlərini aydın təsəvvür edir və xalqı bu inkişaf yolu ilə irəli apararaq deyir: **"Azərbaycan bu gün uğurla, sürətlə inkişaf edən ölkədir, ancaq biz əldə edilmiş uğurlarla kifayətlənməməliyik. Daim qabağa baxmalıyıq və növbəti illərdə görüləcək işlərlə bağlı fəaliyyətimizi düzgün qurmalıyıq".**

Heç bir şübhə yoxdur ki, dövlət qulluqçularının fəaliyyəti ölkənin inkişafında, xalqın güzəranının yaxşılaşmasında öz əksini tapır. Cənab Prezidentin qeyd etdiyi kimi, dövlət qulluğunun təşkilində beynəlxalq təcrübə nəzərə alınmaqla daha böyük yeniliklər həyata keçiriləcək, bu sahədə yeni yanaşmalar və təşəbbüslər Azərbaycanda dövlət qulluğunun nüfuzunun gündən-günə yüksəlməsinə və onun daha yaxşı təşkilinə imkan verəcəkdir.

# Təhsil Nazirliyi ötən ildəki fəaliyyəti ilə bağlı hesabat verib









İyunun 21-də Təhsil Nazirliyinin 2017-ci ildə gördüyü işlərlə bağlı hesabatına həsr olunan tədbiri keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Baş nazirin müavini Əli Əhmədov, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva, müvafiq qurumların rəhbərləri, Milli Məclis deputatları, ali məktəb rektorları iştirak ediblər.

Təhsil İnstitutunun direktoru vəzifəsini icra edən Emin Əmrullayev təhsilin keyfiyyətinin yüksəldilməsi, əhatəliliyi və əldə olunan nailiyyətlər barədə ətraflı məlumat verib.

Təhsil naziri Ceyhun Bayramov "Təhsil sistemi - vəzifələr və hədəflər" mövzusunda təqdimatla çıxış edib.

Təhsilin inkişafının ölkəmizin tərəqqisi baxımdan vacib amil olduğunu vurğulayan nazir Prezident İlham Əliyevin bu sahəyə daim xüsusi önəm verdiyini bildirib. Vurğulanıb ki, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" sənədinin qəbulundan ötən müddət ərzində təhsil sahəsində müsbət dinamika müşahidə olunub, beş il bundan əvvəl ilə müqayisədə uğurlu nəticələr əldə edilib.

Təhsil sahəsində həyata keçirilən layihələrdən danışan nazir 2020-ci ilədək məktəbəhazırlığın əhatəlilik səviyyəsinin 90 faizə çatdırılmasının nəzərdə tutulduğunu söyləyib. C.Bayramov qəbul imtahanlarının yeni modelindən bəhs edərək bildirib ki, hazırda bu istiqamətdə Dövlət İmtahan Mərkəzi ilə sıx əməkdaşlıqda iş aparılır.

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda edilən dəyişiklikləri xatırladan nazir ali təhsil müəssisələrinə qəbul üzrə əsasən iki dəyişikliyin nəzərdə tutulduğunu vurğulayıb. Diqqətə çatdırılıb ki, həmin dəyişikliklər beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramları üzrə təhsil almış abituriyentlərin müəyyənləşdirilmiş şərtlər yerinə yetirilməklə, təhsil aldıqları dildə tədris olunan ixtisaslar, beynəlxalq fənn olimpiadaları qaliblərinin istənilən ixtisaslar, respublika fənn olimpiadalarının, yüksək səviyyəli beynəlxalq müsabiqələrin və yarışların qaliblərinin müvafiq ixtisaslar ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olunmaları ilə bağlıdır.

Müəllim peşəsinin nüfuzunun yüksəlməsinə təsir göstərən tədbirlərin davam etdiriləcəyini bildirən C.Bayramov sertifikasiya mexanizminin tətbiqinin təhsildə keyfiyyət baxımından nailiyyətlər əldə olunmasında vacibliyini diqqətə çatdırıb.

Tədbirdə "Təhsil" televiziyasının 2017-ci ildə təhsil sahəsində həyata keçirilən tədbirlərə və yeniliklərə dair hazırladığı videoxronika nümayiş olunub.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Akif Əlizadə müasir dünyada elmin, təhsilin mühüm rolundan danışıb, bu sahələr arasında inteqrasiyanın genişləndirilməsinin əhəmiyyətini qeyd edib.

Akademik A.Əlizadə ölkəmizdə elmin, təhsilin inkişafı üçün geniş imkanların yaradıldığını vurğulayıb.

Təhsil sahəsində aparılan islahatların mühüm keyfiyyət mərhələsinə qədəm qoyduğunu qeyd edən Baş nazirin müavini Əli Əhmədov Prezident İlham Əliyevin bu sahəni prioritet elan etməsi nəticəsində ölkəmizin gələcəyinin parlaq olacağına əminliyini bildirib.

Baş nazirin müavini, eyni zamanda, təhsilin keyfiyyətinin yüksəldilməsi ilə bağlı fikirlərini söyləyib.

# Əlcəzair ilə ilk dövlətlərarası müqavilə imzalanıb





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkədə aparılan hərtərəfli islahatlar çərçivəsində Ədliyyə Nazirliyi tərəfindən mütərəqqi beynəlxalq təcrübəyə böyük əhəmiyyət verilir, bu məqsədlə bir çox xarici dövlətlərin Ədliyyə nazirlikləri ilə səmərəli ikitərəfli əlaqələr qurulub.

Ötən il respublikamızın ədliyyə nazirinin Əlcəzair Xalq Demokratik Respublikasına səfəri zamanı Ədliyyə nazirlikləri arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumunun imzalanması iki ölkə arasında bağlanmış ilk sənəd olmaqla ikitərəfli münasibətlərin inkişafına təkan verib. Eyni zamanda, ekstradisiya haqqında müqavilə layihəsi hazırlanaraq razılaşdırılıb və Əlcəzair Ədliyyə Nazirliyi nümayəndə heyətinin cari ilin əvvəlində ölkəmizə səfəri zamanı paraflanıb.

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, həmin sənədin imzalanması məqsədilə Əlcəzair Xalq Demokratik Respublikasının ədliyyə naziri Tayeb Louh nümayəndə heyəti ilə Azərbaycana rəsmi səfərə gəlib.

İyunun 21-də Əlcəzair nümayəndə heyəti əvvəlcə Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin əziz xatirəsini yad edərək məzarı önünə əklil qoyub.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılaraq məzarı üzərinə tər çiçəklər düzülüb.

Qonaqlar, həmçinin Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş həmvətənlərimizin məzarlarını ziyarət edərək "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

Sonra Ədliyyə Nazirliyində respublikamızın ədliyyə naziri Fikrət Məmmədovun və Əlcəzairin ədliyyə naziri Tayeb Louhun görüşü keçirilib.

Azərbaycan və Əlcəzair arasında əlaqələrin inkişaf etdirilməsində hər iki ölkənin dövlət başçıları İlham Əliyevin və Əbdüləziz Buteflikanın siyasi iradəsini qeyd edən nazir F.Məmmədov "İslam həmrəyliyi ili" elan olunmuş 2017-ci ildə Əlcəzairə səfərini və keçirilmiş rəsmi görüşləri məmnunluqla xatırladıb, nazirliklərarası Anlaşma Memorandumunun qarşılıqlı fəaliyyətin genişləndirilməsində yeni səhifə açdığını söyləyib, hazırkı səfərin ölkələrimiz arasında əlaqələrin dərinləşməsinə əlavə təkan olacağına əminliyini ifadə edib.

Nazir respublikamızın müstəqillik illərində keçdiyi inkişaf yolundan bəhs edərək ümummilli lider Heydər Əliyevin müstəsna xidmətlərini vurğulayıb, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə qazanılan nailiyyətlər, ədliyyə və məhkəmə sisteminin müasirləşdirilməsi üzrə həyata keçirilən tədbirlər barədə məlumat verib.

Azərbaycana ilk dəfə səfər etməsindən məmnunluğunu ifadə edən Tayeb Louh ölkələrimiz arasındakı tarixi əlaqələrin genişləndirilməsinə dövlət başçılarının xüsusi önəm verdiyini, hər iki ölkənin Ədliyyə nazirliklərinin bu istiqamətdə səylə çalışdığını vurğulayıb, imzalanmış Anlaşma Memorandumunun hüquqi sahədə əməkdaşlığın dərinləşməsinə xidmət etdiyini bildirib.

Qonaq, həmçinin Azərbaycanda ədliyyə sisteminin müasirləşdirilməsi, innovasiyaların tətbiqi sahəsində əldə olunan nailiyyətləri təqdir edib, səfər zamanı Azərbaycan brendi olan "ASAN xidmət" mərkəzləri ilə tanışlıqdan heyranlığını ifadə edib, ASAN-ın göstərdiyi xidmətləri maraqla qarşılayaraq bu sahədə təcrübəmizlə daha yaxından tanış olmaq barədə istəklərini bildirib.

Əlcəzairli nazir qarşılıqlı fəaliyyətin və təcrübə mübadiləsinin əhəmiyyətini qeyd edib, səmimi qonaqpərvərliyə və səfərin yüksək səviyyədə təşkil olunmasına görə minnətdarlığını bildirib.

Sonra Azərbaycan və Əlcəzair arasında ekstradisiya haqqında müqavilə imzalanıb.

Mərasimdə bəyanatlarla çıxış edən nazirlər qeyd ediblər ki, imzalanan bu mühüm sənəd ilk dövlətlərarası müqavilə olmaqla cinayət əməli törətmiş şəxslərin təslim edilməsi sahəsində qarşılıqlı fəaliyyətin həyata keçirilməsinə, ölkələrimizin ədliyyə və məhkəmə orqanları arasında əlaqələrin möhkəmlənməsinə xidmət edəcək, cinayətkarlığa qarşı mübarizəyə töhfə verəcək.

Qonaqlar nazirlikdə bu il 100 illiyi qeyd olunan Azərbaycan Ədliyyəsinin tarixi muzeyi ilə tanış olub, nümayəndə heyətinə müasir ədliyyə fəaliyyətinə və məhkəmə-hüquq islahatlarına dair, həmçinin iki ölkə arasında hüquqi əlaqələri, habelə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məlumatları əks etdirən xüsusi jurnallar və əyani vəsaitlər təqdim edilib.

Tədbirin yekununda KİV nümayəndələrinə müsahibə verilib.

Həmin gün əlcəzairli nazirin Azərbaycan Respublikasının Baş naziri ilə, həmçinin Milli Məclisdə və Baş Prokurorluqda görüşləri olub.

Səfər zamanı Konstitusiya və Ali məhkəmələrdə də rəsmi görüşlərin keçirilməsi, Əlcəzair ədliyyə nazirinin hakimlər, hakimliyə namizədlər, ədliyyə işçiləri, vəkillər və prokurorluq əməkdaşları üçün mühazirəsi, eləcə də nümayəndə heyətinin müasir məhkəmə infrastrukturu və elektron məhkəmə sisteminin tətbiqi, habelə paytaxtın mədəni və tarixi abidələri ilə tanışlığı nəzərdə tutulur.

# Azərbaycanın xarici işlər naziri Minskdə belaruslu həmkarı ilə görüşüb

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Minskdə keçirilən Şərq Tərəfdaşlığı ölkələri xarici işlər nazirlərinin iclasında iştirakı çərçivəsində iyunun 21-də belaruslu həmkarı Vladimir Makey ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir Elmar Məmmədyarov səfər əsnasında ona və nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə təşəkkürünü ifadə edib. Nazirlər bu il ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 25 illiyinin qeyd olunmasına toxunaraq ötən illər ərzində Azərbaycan ilə Belarus arasında qarşılıqlı anlaşmaya və etimada əsaslanan dostluq və tərəfdaşlıq münasibətlərinin qurulduğunu məmnunluqla vurğulayıblar.

Görüşdə ölkələrimiz arasında yüksək səviyyəli dialoq təqdir edilib, dövlət başçılarının iradələrinə uyğun olaraq ikitərəfli əməkdaşlığın bütün sahələrdə uğurla inkişaf etdiyi bildirilib. İkitərəfli əməkdaşlığın ruhuna uyğun olaraq ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində də uğurla əməkdaşlıq etdiyi qeyd olunub, qarşılıqlı dəstəyin bundan sonra da davam etdirilməsinin vacibliyi diqqətə çatdırılıb.

Nazirlər, həmçinin beynəlxalq və regional gündəliyə aid məsələlər ətrafında geniş fikir mübadiləsi aparıblar.

# Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclası keçirilib

İyunun 21-də Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, komitənin sədri Hadi Rəcəbli əvvəlcə "Məşğulluq haqqında" qanun layihəsini üçüncü oxunuşda müzakirəyə təqdim edib. Bildirilib ki, qanun layihəsində birinci və ikinci oxunuşdan sonra təkliflər nəzərə alınaraq müəyyən dəyişikliklər edilib. Qanun layihəsi 6 fəsil, 37 maddədən ibarətdir. Bu qanun Azərbaycan Respublikası Konstitusiyasının 35-ci maddəsinə və 94-cü maddəsinin birinci hissəsinin birinci bəndinə uyğun olaraq məşğulluğa kömək sahəsində dövlət siyasətinin hüquqi, iqtisadi və təşkilati əsaslarını, eləcə də işaxtaran və işsiz şəxslərin sosial müdafiəsi sahəsində dövlət təminatlarını müəyyən edəcək. Qanun Azərbaycan vətəndaşlarına, ölkədə yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə şamil edilir. Məşğul şəxslərə muzdla işləyənlər, mülki-hüquqi xarakterli müqavilələrlə işləyənlər, əyani təhsil alanlar, sahibkarlar, mülkiyyətində kənd təsərrüfatına yararlı torpaq payı olanlar, ailə kəndli təsərrüfatının üzvləri və sair aiddir.

Müzakirələrdə çıxış edən komitə üzvləri İlham Əliyev, Elmira Axundova, Yaqub Mahmudov, Milli Məclis Aparatının sosial qanunvericilik şöbəsinin müdiri Adilə Abbasova layihə barədə qeyd və təkliflərini bildiriblər.

Sonra "Məşğulluq haqqında" qanun layihəsi üçüncü oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə edilib.

Sonra Əmək və sosial siyasət komitəsinin 2018-ci ilin yaz sessiyası müddətində gördüyü işlər diqqətə çatdırılıb. Hadi Rəcəbli bildirib ki, yaz sessiyası ərzində Əmək və sosial siyasət komitəsinin 10 iclası keçirilib, 33 məsələyə baxılıb, iki qanun işlənilib. Komitəyə 477 sənəd, 500-ə qədər ərizə və şikayət daxil olub.

Müzakirələr zamanı deputatlar komitənin 2018-ci ilin yaz sessiyasındakı fəaliyyətini qənaətbəxş hesab ediblər.

# İqtisadiyyatın əsas sahələri üzrə artım davam edir

## *Sənayenin qeyri-neft sektorunda məhsul istehsalının artımı 8 faizə yaxınlaşır*

***Əvvəli 1-ci səh.***

Emal sektorunda avtomobil, qoşqu və yarımqoşquların istehsalı 16,1, tütün məmulatları istehsalı 2,6, poliqrafiya məhsulları istehsalı 2,2, hazır metal məmulatları istehsalı 2 dəfə, mebel istehsalı 96,8, elektrik avadanlıqları istehsalı 96,2, dəri və dəri məmulatları, ayaqqabı istehsalı 95,6, toxuculuq sənayesi məhsulları istehsalı 61,4, tikinti materialları istehsalı 40,4, metallurgiya sənayesi məhsulları istehsalı 18,4, geyim istehsalı 11,4, əczaçılıq məhsulları istehsalı 3,7 faiz artmışdır. Artım həmçinin elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında müşahidə olunmuşdur.

Dövlət Statistika Komitəsinin məlumatına görə, yanvar-may aylarında əsas kapitala 5 milyard 240,8 milyon manat vəsait yönəldilmişdir. İstifadə olunmuş vəsaitin 73,1 faizi məhsul istehsalı və 20,8 faizi xidmət obyektlərinin, 6,1 faizi ümumi sahəsi 640,8 min kvadratmetr olan yaşayış evlərinin tikintisinə sərf edilmişdir. 53,7 faizi daxili sərmayələr olan bu vəsaitlərin 72,5 faizi bilavasitə tikinti-quraşdırma işlərinə yönəldilmişdir. Xarici sərmayəyə gəldikdə, hesabat dövründə onların həcmi 2 milyard 426,4 milyon manata çatmışdır. Bu vəsaitin 79,3 faizi Böyük Britaniya, İsveçrə, Türkiyə, Malayziya, ABŞ, Yaponiya, Çexiya, Rusiya və İran kimi ölkələrə məxsusdur. Hesabatda həmçinin bildirilir ki, yanvar-may aylarında qeyri-neft sektorunun inkişafına 2 milyard 887,1 milyon manat vəsait sərf olunmuşdur. Həmin vəsaitin 11,9 faizindən (622 milyon manatından) qeyri-neft sənayesi sektorunda istifadə edilmişdir.

Bütün bu vəsaitlər hesabına ilin əvvəlindən ötən 5 ay ərzində ölkə ərazisində çoxsaylı və müxtəlif təyinatlı müəssisə və obyektlər tikilib istifadəyə verilmişdir. Onların sırasında paytaxtda "Yasamal-1", "Qobu" və 120 saylı elektrik yarımstansiyaları, Bakı Statistika İdarəsinin inzibati binası, "Bona Dea" beynəlxalq hospital, Bakı Beynəlxalq Ticarət Limanı Kompleksi, "Dinamo" hoteli, Bakı Olimpiya Stadionundan Heydər Əliyev prospektinə keçid və müxtəlif səviyyəli yol qovşağı, Mingəçevir Sənaye Parkında iplik istehsalı üzrə 2 müəssisə, Neftçala Sənaye Məhəlləsində "Xəzər" avtomobil zavodu, Xaçmazda "Azərxalça" ASC-nin filialı, Naxçıvan MR-də 922 şagirdlik 3 ümumtəhsil məktəb binası və ambulator-poliklinika, Təmizləyici Qurğular Kompleksi, Naxçıvan Müəllimlər İnstitutunun yeni binası kimi vacib obyektlər var.

Ölkənin ümumi inkişafı nəqliyyat, informasiya və rabitə sektorlarına da təsir göstərib. Hesabat dövründə ölkə üzrə 88,7 milyon ton yük və 779,3 milyon sərnişin daşınmışdır ki, bu da ötən ilin eyni dövründəkindən müvafiq olaraq 0,9 və 1,4 faiz çoxdur. İnformasiya və rabitə müəssisələri bu dövrdə 715,9 milyon manatlıq xidmətlər göstərmişdir. Keçən ilin müvafiq aylarına nisbətən dəyər ifadəsində 6,3 faiz artan həmin xidmətlərin 72,1 faizindən əhali istifadə etmişdir. Maraqlı bir fakt da bu sahədə əldə edilmiş gəlirin 81,1 faizinin qeyri-dövlət sektorunun payına düşməsidir.

Artım həmçinin pərakəndə ticarət dövriyyəsində qeydə alınmışdır. Belə ki, sözügedən dövrdə ölkədəki pərakəndə ticarət şəbəkəsindən əhaliyə 13 milyard 697,7 milyon manatlıq məhsul satılmış, 3 milyard 175,5 milyon manatlıq ödənişli xidmətlər göstərilmişdir. Əhaliyə göstərilmiş ödənişli xidmətlərdən əldə edilən gəlir 2,4 faiz artmışdır.

Sözsüz ki, artımda əhalinin gəlirlərinin çoxalması da müəyyən rol oynamışdır. Dövlət Statistika Komitəsinin məlumatına görə, yanvar-aprel aylarında muzdla işləyənlərin nominal əməkhaqqı 3,5 faiz artaraq 538,8 manata çatmışdır. Ümumilikdə əhalinin gəlirləri 5 ay ərzində nominal ifadədə 9,3 faiz çoxalaraq 20 milyard 753,7 milyon manat olmuşdur.

İnflyasiyaya gəldikdə, Dövlət Statistika Komitəsinin məlumatına görə, yanvar-may aylarında istehlak məhsullarının və xidmətlərin qiymətləri 3,2, o cümlədən ərzaq 3,2, qeyri-ərzaq 3,9, ödənişli xidmətlərin tarifləri 2,6 faiz bahalaşmışdır.

Xarici ticarət əlaqələrinə gəldikdə, gömrük orqanlarına qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri də nəzərə alınmaqla yanvar-aprel aylarında ölkənin xarici ticarət dövriyyəsinin həcmi 9 milyard 318,8 milyon dollar olmuşdur. Ticarət dövriyyəsinin 67,5 faizini ixrac, 32,5 faizini idxal məhsulları təşkil etmişdir ki, bu da 3,2 milyard dollarlıqdan çox müsbət saldo deməkdir. Ötən ilin 4 ayı ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 32,8, real ifadədə 3,3, o cümlədən ixrac 2,2, idxal 5,7 faiz artmışdır. Qeyri-neft məhsullarının ixracında da artım kifayət qədər yüksək olmuşdur - faktiki qiymətlərlə 19,3, real ifadədə 11,4 faiz.

***Raqif MƏMMƏDOV,***
***"Azərbaycan"***

# Göyçay çayı üzərindəki körpünün dağılaraq yararsız vəziyyətə düşməsi ilə əlaqədar cinayət işləri başlanılıb

Məlum olduğu kimi, 2018-ci il iyun ayının 2-də Göyçay rayonu ərazisində baş vermiş güclü leysan zamanı Bakı-Şamaxı-Yevlax yolunun 217-ci kilometrində Göyçay çayı üzərində yerləşən körpü qum-çınqıl yataqlarında aparılan qanunsuz istismar işləri səbəbindən dağılaraq yararsız vəziyyətə düşüb, nəticədə dövlətə 3 milyon manatdan çox ziyan dəyib.

Respublika Baş Prokurorluğunun, Daxili İşlər, Fövqəladə Hallar, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin mətbuat xidmətlərindən AZƏRTAC-a daxil olan birgə məlumatda bildirilir ki, bununla əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən ayrı-ayrı şəhər və rayonlarda fəaliyyət göstərən 250-yə yaxın qum-çınqıl karxanasından 81-də monitorinq aparılıb. Müəyyənləşdirilib ki, son dövrlər bəzi dövlət orqanları və sahibkarlıq subyektləri tərəfindən yer təkinin qorunması, xüsusən çay yataqlarının istifadəsi sahəsində qanunvericiliklə müəyyən edilmiş standartlar, normativlər, qaydalar və lisenziyalaşdırma şərtləri kobud surətdə pozulduğundan ətraf mühitə, infrastruktur obyektlərinə, su təchizatı şəbəkələrinə, hidrotexniki qurğulara və sahilbərkitmə bəndlərinə ciddi təhlükə yaranıb, çay məcraları kəskin eroziyaya məruz qalıb.

Aşkarlanmış qanunsuzluqlarla bağlı toplanılmış materiallar əsasında Azərbaycan Respublikasının Baş Prokurorluğunda Cinayət Məcəlləsinin 192-ci (qanunsuz sahibkarlıq), 255-ci (yerin təkinin qorunması və istifadəsi qaydalarını pozma) və 308-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işləri başlanılıb, eləcə də hüquq mühafizə orqanlarının təcrübəli əməkdaşlarından və aidiyyəti dövlət qurumlarının mütəxəssislərindən ibarət istintaq-əməliyyat qrupları yaradılaraq təxirəsalınmaz tədbirlər həyata keçirilib.

İstintaq araşdırmaları göstərib ki, karxanalardan 14-ü lisenziya və digər müvafiq sənədlər olmadan qanunsuz şəkildə qum-çınqıl istehsalı ilə məşğul olub, daha 41 karxana isə yataqların istismarının dayandırılması barədə Nazirlər Kabinetinin qərarına zidd olaraq fəaliyyətini davam etdirib və nəticədə dövlətə 16 milyon manatdan çox ziyan vurulub.

Konkret olaraq "Göyçay" qum-çınqıl yatağında istismar işləri aparan karxanalar ətraf mühitə 4 milyon manatdan çox, Mingəçevir şəhərində və Yevlax rayonunda yerləşən 16 karxana 700 min manatdan artıq, Şamaxı, İmişli, Şəmkir, Qazax, Quba, Qusar, Tərtər və Bərdə rayonları ərazisində yerləşən 56 karxana isə 8 milyon manatdan çox ziyan vurub.

Göstərilən hüquqazidd əməllərə yol verdiklərinə görə "ATF" MMC-nin təsisçisi və faktiki rəhbəri Fəxrəddin Muradov, "Azpod" MMC-nin qum-çınqıl zavodunun direktoru Nəcməddin Əliyev, "Elnicat" MMC-nin direktoru Bəhruz Sadayev, "Titanik-5" MMC-nin təsisçisi və faktiki rəhbəri Şahin Məmmədov, fiziki şəxslər Natiq Zakirov, Nazim Qasımov, Nəriman Yəhyayev Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək məhkəmənin qərarı ilə həbs olunublar. "Azəraqrartikinti" ASC-nin Göyçay qum-çınqıl filialının istehsalat rəisi Allahverdi Allahverdiyev və "Gülövşə" MMC-nin təsisçisi Mahir Allahverdiyev barəsində polisin nəzarəti altına verməqətimkan tədbiri seçilib. "Attinak" MMC, "Bayburt Qrup" Anonim Şirkəti, habelə bir sıra digər hüquqi və fiziki şəxslər barəsində araşdırmalar davam etdirilir.

Hazırda istintaqı aparılan cinayət işləri üzrə bütün təqsirli şəxslərin müəyyən edilib məsuliyyətə cəlb olunması, ətraf mühitə vurulmuş ziyanın ödətdirilməsi və nəticələrinin aradan qaldırılması istiqamətində tədbirlər həyata keçirilir.

Azərbaycan Respublikası Müdafiə Nazirliyi

1918 Azərbaycan Ordusu - 100 2018

# Azərbaycan Qarabağa nəzarəti genişləndirir və gücləndirir



## İşğal edilmiş torpaqlarda strateji yüksəkliklər, yollar və hərbi təyinatlı ərazilər ard-arda Silahlı Qüvvələrimiz tərəfindən geri qaytarılır

Əvvəli 1-ci səh.

### Tank əleyhinə minalar, əl qumbaraları, pulemyotlar oğurlanıb

Bağlamaların içərisindən əsgərlər üçün nəzərdə tutulan mal əti konservləri, qatılaşdırılmış süd, makaron, vermişel, tomat pastası, gigiyena vasitələri çıxıb. Qriqoryanın anbarlarından Müdafiə Nazirliyinin hazırladığı və satış üçün nəzərdə tutulmayan əsgər payları da tapılıb. Manvelin Arşaluys kəndindəki istirahət məkanından 18 tank əleyhinə mina, onlarla əl qumbarası, on minlərlə pulemyot və avtomat patronu, çoxsaylı qumbaraatan və onlara aid sursat, müxtəlif markalı 39 pistolet, snayper tüfəngləri, müxtəlif tipli karabinlər və digər silah-sursat tapılıb.

Ermənistanın baş naziri Nikol Paşinyan da məsələyə münasibət bildirib: "Əsaslı şübhələr var ki, Qriqoryan həm Qarabağ əhalisi, həm erməni ordusu üçün nəzərdə tutulmuş humanitar yardımları mənimsəyib. Manvel Qriqoryanın evində və ona məxsus ərazilərdə aparılmış axtarışlar bu şübhələri təsdiqləyir". Onun sözlərinə görə, ciddi şübhələr var ki, Manvel ordu üçün nəzərdə tutulmuş texnikanı, əsasən maşınları da mənimsəyib.

### Oğurlanan əsgər paylarının bir hissəsi Qarabağda gizlədilib

Qriqoryanın "Əsgər payı" adlı ət konserv bankalarının bir hissəsini Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsində gizlətdiyi məlum olub. Ermənistanın Xüsusi İstintaq Xidmətinin mətbuat katibliyi bəyan edib ki, iyunun 20-də Dağlıq Qarabağda Qriqoryanın zəbt etdiyi "Ara ler" adlandırılan ərazidə axtarış-əməliyyat tədbiri keçirilib. Əməliyyat nəticəsində həmin yerdən ət konserv bankaları ilə yanaşı, satış üçün nəzərdə tutulmayan başqa ərzaq məhsulları və mallar aşkarlanıb.

Manvel Qriqoryanın həyat yoldaşı Nazik Amiryan əsgərlər üçün nəzərdə tutulan 3 minə yaxın ət konserv bankasını gizlətməyə cəhd edib. Bildirilir ki, polis konservi avtomobildə axtarış aparan zaman aşkarlayıb. Avtomobildən "Satış üçün deyil, əsgər yeməyidir" yazılmış bankalar götürülüb. Həmin yük avtomobilinin sürücüsü də tutulub. Məlum olub ki, içərisində 2980 banka olan yük avtomobili keçmiş nazir müavininin həyat yoldaşı Nazik Amiryanın tapşırığı əsasında hərəkət edirmiş.

### "Tuşonka" Manvel

Ermənistan parlamentinin üzvü Seyran Saroyan bildirir ki, əsgərdən oğurluq edən cəzalanacaq, prokuror tərəfindən olmasa da, Allah tərəfindən... Onun sözlərinə görə, generalın malikanəsindən silah tapılmasını birtəhər başa düşə bilər, amma əsgərlər üçün nəzərdə tutulmuş ərzağın aşkarlanmasını izah edə bilmir: "Qəhrəmandan "tuşonka" oğrusuna qədər necə enmək olardı axı? Nəyi çatışmırdı ki?" Qriqoryanın öz adını təmizə çıxaracağı ilə bağlı dediyi sözləri şərh edərkən Saroyan deyib ki, bu barədə danışmaq mənasızdır: "Hansı ad? Nə deyə bilər? Bu məktublara necə cavab verə bilər? Heç bir şərəfdən söhbət belə gedə bilməz".

Erməni ekspert Yuri Manvelyan qeyd edir ki, Qriqoryan karyerasını müharibədə qurub: "Və onun bütün sərvətləri, zənginliyi Qarabağda, müharibə gedən ərazilərdə törətdiyi qarətlərdən qaynaqlanır". Qeyd edək ki, Qriqoryan Xocalı soyqırımının törədilməsi, Füzuli və Cəbrayıl rayonlarının işğalı zamanı azərbaycanlı sakinlərin mülkiyyətinin talan edilməsi, hərbi əsirlərə işgəncələrin verilməsi, kütləvi qətlə yetirilməsi, həmçinin, mülki şəxslərin girov götürülməsi, işgəncələrə məruz qoyulması və öldürülməsi kimi çoxsaylı hərbi cinayətlərin törədilməsində iştirak edib. Hələ 2014-cü ilin noyabrında "Azadlıq" radiosunun erməni bürosuna verdiyi müsahibəsində o, Qarabağ döyüşlərindən yüzlərlə azərbaycanlı girovla geri qayıtdığını və hətta onları şəxsi evində işlətdiyini açıq şəkildə və "fəxrlə" bəyan etmişdi.

Bu etirafına görə hətta erməni hüquq müdafiəçiləri tərəfindən tənqid olunan və bu kimi əməlləri ilə Cenevrə konvensiyalarının pozulmasında ittiham olunan Manvel Qriqoryan həqarətlə Cenevrə konvensiyaları filan tanımadığını bəyan etmişdi. Ermənistanın milli "qəhrəmanı" olan bu şəxs bu kimi açıqlamalarından sonra da Ermənistanın Respublika partiyasının imtiyazlı üzvü kimi fəaliyyətini davam etdirmişdi.

### Qarət və varlanmaq naminə müharibə aparanlar

Qeyd edək ki, Azərbaycanın müdafiə naziri Zakir Həsənov bildirib ki, Azərbaycan ərazilərində hərbi cinayətlər törətmiş Manvel Qriqoryanın Qarabağa əsgərlərə göndərilmək üçün məktəblilərin topladıqları ərzağı daşıyıb öz evinə yığmasını görəndə bundan təəccüblənməyib: "Mən bu rüsvayçılığı izlədim. Qarabağda azərbaycanlı qadınlara, uşaqlara, qocalara qarşı xüsusi vəhşiliyi ilə ad çıxarmış birindən başqa nə gözləyirdiniz? Hərbçi kimi mən gördüklərimdən heyrətə gəldim: əsgərlərə göndərilmək üçün məktəblilərin topladığı ərzaq bağlamaları, onların içərisindən tapılan və uşaqların yazdığı məktublar - bunlara necə izah vermək olar? O, insan deyil, mən ona insan deməzdim. Bu adamın Qarabağda hansı vəhşiliklər törətdiyi bizə yaxşı məlumdur, indi erməni xalqı ondan başqa nə gözləyirdi ki? Manvel və onun kimiləri qəhrəman deyil, onlar erməni xalqının bədbəxtliyinin baiskarlarıdır. Bu adamlar müharibəni də qarət naminə, varlanmaq naminə aparıblar".

Belə bir gərgin ictimai-siyasi və iqtisadi fonda Paşinyanın Sarkisyanın silahdaşlarını həbsə atdırması parçalanmış erməni cəmiyyətində ziddiyyətləri daha da dərinləşdirəcək. Bu isə ölkəni yeni qarşıdurmaya sürükləyir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***













# Xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin məzunlarının növbəti buraxılışı olub





İyunun 21-də Silahlı Qüvvələrin Hərbi Akademiyasının və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin məzunlarının növbəti buraxılışına həsr olunan təntənəli mərasim keçirilib.

AZƏRTAC xəbər verir ki, mərasimdə Müdafiə Nazirliyinin rəhbərliyi, yüksək rütbəli zabitləri, Ali Hərbi Məktəbin, ictimaiyyətin nümayəndələri, veteranlar məzunların ailə üzvləri və yaxınları iştirak ediblər.

Müdafiə Nazirliyinin rəhbərliyi hərbi məktəbin ərazisində ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyaraq xatirəsini ehtiramla yad ediblər.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.



Müdafiə Nazirliyinin nümunəvi hərbi orkestrinin və kursantların ifasında Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Mərasimdə çıxış edən müdafiə naziri, general-polkovnik Zakir Həsənov əlamətdar gün və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyi münasibətilə gənc zabitləri, onların valideynlərini təbrik edib. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə son illər həyata keçirilən kompleks islahatların nəticəsi olaraq, bu gün Azərbaycan Ordusunun istənilən döyüş əmrini yerinə yetirməyə tam hazır olduğunu bildirən müdafiə naziri məzunlara ölkəmizin gələcəyi, ordumuzun, dövlətimizin müdafiə qüdrətinin daha da yüksəldilməsi naminə xidmətlərində uğurlar diləyib.

Sonra ali hərbi məktəbi fərqlənmə ilə bitirən məzunlara diplomlar və qiymətli hədiyyələr təqdim olunub.

Məktəbi fərqlənmə ilə bitirən məzunlar üzərində ulduz və aypara təsviri olan emblemləri rəmzi yaş kötüklərinə vurublar.

Daha sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin döyüş bayrağının təhvil verilməsi və qəbul edilməsi mərasimi olub. Ali Hərbi Məktəbin döyüş bayrağı növbəti buraxılışın kursantlarına təhvil verilib.

Nümunəvi orkestrin və kursantların ifasında məktəbin marşı ifa edilib.

Sonda kursantlar hərbi marşın sədaları altında tribunanın önündən keçiblər.

# Gənclərin hərbi vətənpərvərlik tərbiyəsinin gücləndirilməsinə xüsusi diqqət yetirilir





**Düşmənlə 168 kilometr sərhəddi olan Qazax rayonu Dağlıq Qarabağ müharibəsi başlayandan indiyədək 285 şəhid verib. Onlardan 7 nəfəri Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. Rayonun 7 kəndi hələ də erməni işğalçılarının tapdağı altındadır. 5 kəndə isə mütəmadi olaraq düşmən tərəfindən atəş açılır. Belə bir coğrafi şəraitdə yerləşən rayonda hərbi vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi bu gün ən aktual məsələ kimi diqqət mərkəzində saxlanılır.**

Azərbaycan Müdafiə Nazirliyinin və Qazax Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən növbəti tədbir də bu baxımdan yaddaqalan olmuşdur. Ümummilli lider Heydər Əliyevin Azərbaycan hakimiyyətinə ikinci dəfə qayıdışının 25-ci ildönümünə və Silahlı Qüvvələrin yaradılmasının 100 illik yubileyinə həsr olunmuş tədbirə minlərlə rayon sakini toplaşmışdı. Bu, xalqın ümummilli liderinə olan sonsuz məhəbbətinin, Azərbaycan Ordusuna olan inamının nümayişi idi.

Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin adını daşıyan parkda ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstələri qoydular. Sonra Azərbaycan Ordusunun ilk qurucularından biri general-mayor Cavad bəy və polkovnik Rüstəm bəy Şıxlinskilərin yaşadıqları evə vurulmuş xatirə lövhəsinin açılışı oldu. Layhənin müəllifi, əməkdar incəsənət xadimi, polkovnik Abdulla Qurbani açılış mərasimində çıxış edərək Cavad və Rüstəm Şıxlinskilərin ordu quruculuğundakı xidmətlərindən danışdı, onların həyat və fəaliyyətlərinin gənc nəslə örnək olduğunu diqqətə çatdırdı.

Əyinlərində Azərbaycanın ilk hərbi geyimləri olan suvari əsgərlərin tədbirə qatılmaları iştirakçılar tərəfindən alqışlarla qarşılandı. Lövhənin rəsmi açılışını bildirən ağ örpək götürüldükdən sonra Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov çıxış edərək tədbir iştirakçılarını salamladı və gənclərin hərbi vətənpərvərlik ruhunun yüksəldilməsində belə tədbirlərin əhəmiyyətindən danışdı. Milli Məclisin deputatlarından Ülviyyə Ağayeva və Kamran Nəbizadə, BDU-nun mülki hüquq kafedrasının müdiri Məhəbbət Dəmirçiyeva, Azərbaycan Güləş Federasiyasının I vitse-prezidenti, sərbəst güləş üzrə Azərbaycan yığma komandasının baş məşqçisi Firdovsi Umudov, Müdafiə Nazirliyinin mənəvi-psixoloji hazırlıq və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi, general-mayor Rasim Əliyev çıxış edərək son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərdən danışdılar və tezliklə işğal olunmuş torpaqlarımızın düşməndən azad olunacağına əminlik ifadə etdilər. Polkovnik Rüstəm bəyin nəvəsi Rüstəm Şıxlinskinin çıxışı da tədbir iştirakçıları tərəfindən maraqla qarşılandı.

Möhtəşəm bayram tədbirində vətən uğrunda canlarından keçən igid oğul və qızlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Tədbir iştirakçıları "Fəxri qazaxlılar" parkı ilə yaxından tanış oldular, Şəhidlər xiyabanındakı memorial abidə önünə gül dəstələri düzdülər. Sonra tədbir rayon mədəniyyət mərkəzinin qarşısında davam etdirildi.

Tədbirdə diqqətə çatdırıldı ki, bu il Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi, ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə gəlişinin 25 illiyi qeyd edilir. Bu tədbirin keçirilməsində əsas məqsəd ümummilli liderin Azərbaycan xalqı və dövləti qarşısında, eləcə də müstəqil Azərbaycanın ordu quruculuğunda müstəsna xidmətlərini bir daha xatırlamaqdır.

Hərbi orkestrin ifasında Dövlət himni səsləndirildikdən sonra nəhəng monitorda ulu öndərin həyat və siyasi fəaliyyətini, respublikamıza rəhbərlik etdiyi dövrlərdə xalqla keçirdiyi görüşlərini, ordu quruculuğu sahəsindəki əldə edilən nailiyyətləri əks etdirən videoçarx nümayiş etdirildi.

Tədbirdə vurğulandı ki, XX əsrin son illəri Azərbaycan üçün taleyüklü sınaq məqamları ilə zəngin olmuşdur. İctimai-siyası, iqtisadi və mənəvi sahələrdə əldə edilmiş uğurlar Heydər Əliyevin uzaqgörən siyasəti ilə bilavasitə bağlıdır. 70 illik ağır sınaqlarla dolu bir yol keçən Azərbaycan azadlıq uğrunda mübarizədə neçə-neçə oğlunu, qızını qurban verdi. Ötən əsrin 90-cı illərinin əvvəllərində hakimiyyət davası və səriştəsizlik, torpaqlarımızın mənfur ermənilər tərəfindən işğal edilməsinə şərait yaratdı. Azərbaycanı bu bəladan xilas etmək üçün qüdrətli bir ələ, dərin zəka, güclü məntiqə malik bir şəxsiyyətə böyük ehtiyac yarandı. Belə bir şəxsiyyət isə Heydər Əliyev idi. Təbii ki, xalq faciələrdən yeganə çıxış yolunu Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışında gördü. Ulu öndər qısa zamanda bütün çətinlikləri aradan qaldırdı. "Mən həyatımın qalan hissəsini öz xalqıma hər edəcəyəm" kəlamını reallaşdırdı.Yorulmaz fəaliyyəti, məqsədyönlü işi və sanballı əməlləri ilə milli dövlətçiliyimizi dağılmaq təhlükəsindən xilas etdi.

Tədbirdə Prezident İlham Əliyevin 8 dəfə Qazax rayonuna səfər etməsi də yüksək dəyərləndirildi. Qeyd edildi ki, ölkə rəhbərinin hər səfərindən sonra Qazax rayonu yeni inkişaf mərhələsinə qədəm qoydu və daha da müasirləşdi.

Aprel döyüşlərinin şəhidləri - kapitan Mühüd Orucov, baş leytenant Elvin Namazov, əsgər Orxan Əliyev yad edilərək xoş xatirələr dilə gətirildi. İlk topoqraf İbrahim ağa Vəkilovun, "artilleriya Allahı" adlandırılan Əliağa Şıxlinskinin, Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri, general Səməd bəy Mehmandarovun, Qafqaz İslam Ordusunun kamandanı Nuru Paşanın, general-mayor Süleyman Əfəndiyevin, Azərbaycan Ordusunun ilk qurucularından olan general-mayor Cavad bəy və Rüstəm bəy Şıxlinskilərin obrazlarını yaradan aktyorların meydanda görünməsi hamıda qürur hissi oyatdı.

Tədbirdə Azərbaycan Silahlı Qüvvələrinin mahni və rəqs ansamblının ifasında nümayiş olunan ədəbi-bədii kompozisiya, xalq artistləri Alim Qasımovun və Samir Cəfərovun, əməkdar artistlər Nuriyyə Hüseynovanın, Cahangir Qurbanovun və Aybəniz Haşımovanın çıxışları tamaşaçılara xoş ovqat bəxş etdi.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, AMEA-nın vitse-prezidenti Nərgiz Paşayeva “Birlik ulduzları” mükafatı ilə təltif edilib





İyunun 19-20-də Qazaxıstanın paytaxtı Astanada, Qazaxıstan Milli Muzeyində MDB iştirakçısı olan dövlətlərin yaradıcı və elmi ziyalılarının “MDB-də dialoq - XXI əsrdə humanitar əməkdaşlığın perspektivləri” mövzusunda XIII Forumu keçirilib.

MDB iştirakçısı olan dövlətlərin yaradıcı və elmi ziyalılarının forumu Müstəqil Dövlətlər Birliyi məkanında ən iri illik humanitar tədbirdir. MDB ölkələrinin mədəni, elmi və təhsil elitası forumlarda görüşməklə birbaşa peşəkar ünsiyyət və təhsil, elm, ədəbiyyat, təsviri incəsənət və Birlikdə mədəniyyətlərarası qarşılıqlı əlaqənin digər sahələrində aktual, tələbat duyulan layihələrin dəstəklənməsi üçün nadir imkana malik olur.

AZƏRTAC xəbər verir ki, forumda Azərbaycanı geniş nümayəndə heyəti təmsil edib. Nümayəndə heyətinin tərkibinə Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik Nərgiz Paşayeva, AMEA-nın vitse-prezidenti, M.Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun direktoru, akademik Dilqəm Tağıyev, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov, Azərbaycan Dövlət Akademik Filarmoniyasının direktoru, Azərbaycanın xalq artisti Murad Adıgözəlzadə, digər elm və incəsənət xadimləri daxil idi.

Forumun açılışında Azərbaycan ilə yanaşı, Belarus, Qazaxıstan, Rusiya, Moldova, Tacikistan, Türkmənistan, Özbəkistan, Ukrayna və digər ölkələrdən 200-ə yaxın nümayəndə iştirak edib. Qazaxıstanın Dövlət katibi **Gülşara Abdıkalıkova** Prezident Nursultan Nazarbayevin forum iştirakçılarına təbrik məktubunu oxuyub. Dövlət katibi vurğulayıb ki, belə forumlar çərçivəsində humanitar əməkdaşlıq ölkələr arasında mehriban qonşuluq siyasətini daha da möhkəmləndirir.

Rusiya Federasiyası Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi **Mixail Şvıdkoy** Prezident Vladimir Putinin forum iştirakçılarına təbrik məktubunu oxuyub və tədbirin işinə uğurlar arzulayıb.

Sonra 2017-ci il üçün “Birlik ulduzları” mükafatı laureatlarının təltif edilməsi mərasimi keçirilib. Laureatlar sırasında M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, professor Nərgiz Paşayeva, görkəmli rusiyalı musiqiçi, alt alətində ifaçı, dirijor, məşhur pedaqoq və ictimai xadim, SSRİ xalq artisti Yuri Başmet, Qazax Milli incəsənət Universitetinin rektoru, ictimai xadim, Qazaxıstan Respublikasının xalq artisti Ayman Musaxacayeva, Moldova Elmlər Akademiyasının həqiqi üzvü, Milli Kosmik Texnologiyalar Mərkəzinin direktoru, Moldova Respublikasının elm və texnika sahəsində Dövlət Mükafatı laureatı İon Bostan, Qırğızıstan Milli Elmlər Akademiyasının Ç.Aytmatov adına Dil və Ədəbiyyat İnstitutunun direktoru, akademik Abdıldajan Akmataliyev, Tacikistan Respublikasının xalq şairi, Yazıçılar İttifaqının sədri Kosim Nizom, Belarus Respublikasının əməkdar idman ustası, Beynəlxalq Biatlon Federasiyasının İdmançılar Komitəsinin üzvü, dördqat Olimpiya çempionu Darya Domraçeva da var.

M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik Nərgiz Paşayeva elmi və humanitar fəaliyyətinə görə “Birlik ulduzları” mükafatını almaq üçün səhnəyə dəvət edilib. Professor **Nərgiz Paşayeva** onun fəaliyyətinə verilmiş yüksək qiymətə görə forumun iştirakçılarına və təşkilatçılarına minnətdarlığını bildirərək deyib:

*- Xİİİ Humanitar Forumun iştirakçılarını ürəkdən salamlayıram.*

*Mənə “Birlik ulduzları” mükafatı laureatı olmaq və sizin aranızda olmaq xoşbəxtliyi nəsib olub. Şadam ki, dostluq tellərini möhkəmləndirərək biz müasir dünyada bir-biri ilə qarşılıqlı anlaşmanın necə vacib olduğunu başa düşürük. Hər dəfə bu cür imkan düşəndə biz biliklərin, ideyaların, mədəni təcrübənin, gələcək planlarımızın və ümidlərimizin mübadiləsinə kömək etməliyik. Məhz bu əbədi platformalar bizi hər şeydən daha çox əlaqələndirə bilər.*

*Bu gün biz dünya mədəni irsinin və universal dəyərlərin başı üstünü alan yeni, gözlənilməz təhlükələri tez-tez hiss edir və görürük. Gəlin yada salaq ki, İX, X, Xİ, XİI əsrlər müsəlman mədəniyyəti və elminin ən parlaq dövrü olub. Lakin Şərqdən və Qərbdən başlanan müharibələr, yürüşlər, basqınlar böyük tələfata səbəb olub, çox şeyi birdəfəlik məhv edib. XV əsrdə Qranadada o dövrün böyük sayda sufi şeirləri yandırılıb.*

*Hamı başa düşmək və qəbul etmək istəyirmi ki, əxlaqi-etik, humanitar-mənəvi dəyərlər və oriyentirlər olmadan yaradıcılıq, ideya azadlığı, elmi fikrin tərəqqisi davamlı inkişaf edə bilməz.*

*Tarixən yaradıcılıqda həqiqətin öz abstrakt, bəzən tam fərdi, bədii ifadəsi olur. Elmdə həqiqətə və şöhrətə gedən yol uzundur. İllərboyu gərgin əmək, axtarışlar, təcrübələr olmasa, alimlər, yəqin ki, tanınmağın və elmi uğurun sevincini duya bilməzlər. Elmdə həqiqəti aşkar etmək azdır, onu dönə-dönə yoxlamaq, sübut etmək və illüziyalardan qorumaq lazımdır. Xatırlayaq ki, böyüklər də səhvə yol veriblər. Ptolomey Yerin hərəkətsiz olmasına şübhə etmirdi.*

*Kopernik, Eynşteyn, Tolstoy kimi doğulmaq, Nizami kimi “Xəmsə” yazmaq, Nəsimi kimi yaradıcı ideyalar naminə tərki-dünya olmaq hər kəsə nəsib olmur. Lakin biz hamımız istəsək də, istəməsək də bu böyük insanların - harmoniyanın və biliklərin gözəlliyini yaradanların bütün bəşəriyyətə qoyub getdikləri o böyük nurun bir zərrəsini daşıyırıq. Məhz onlar, onların ölməz irsi bizim yolumuzda sönməz ulduzlardır.*

*Biz isə, öz növbəmizdə, o ulduzların işıqlı yolu ilə getməyə çalışırıq və bəzən bu işığı əks etdirməyə ehtiyatlı cəhdlər edirik. Bununla da Göy və Yer arasında öz borcumuzu yerinə yetirir və dərk edirik ki, Həqiqətin müəllifi yoxdur, çünki müəllif o özüdür.*

*Əgər biz öz yolumuzda müəyyən uğur qazanmışıqsa, onda, ilk növbədə, müəllimlərimizə və ustadlarımıza, valideynlərimizə, doğmalarımıza və yaxınlarımıza, həmkarlarımıza borcluyuq. Öz uğurlarımıza görə məhz onlara borcluyuq. Mənə verilmiş yüksək mükafata görə səmimi təşəkkürümü bildirirəm. Sizin icazənizlə, pul mükafatını M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin mənim rəhbərlik etdiyim Bakı filialının tələbələrinin xeyrinə istifadə etmək istəyirəm. Mən bu mükafatı bizim ali məktəbin ən yaxşı tələbəsinə təqaüd üçün ayırmaq niyyətindəyəm.*

*Bu yaxınlarda Azərbaycanda tariximizin ən parlaq səhifələrindən birini təntənəli şəkildə qeyd etdik. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması gününün yüz illiyini bayram etdi. Azərbaycan xalqı müsəlman Şərqində ilk azad və demokratik respublika qurub. Azərbaycanlılar bir əsr ərzində tarixi kataklizmlərə, repressiyalara, edamlara, təqiblərə və təhdidlərə rəğmən bu böyük hadisəni daim yadda saxlayıb və respublikamızın banilərinə, o dövrün böyük nümayəndələrinə ehtiram bəsləyiblər. Azərbaycan özünün demokratik və respublikaçılıq ənənələri ilə həmişə fəxr edib və bu gün də fəxr edir.*

*Məqsədi ictimai rifaha xidmət etmək və humanitar əlaqələri möhkəmlətmək olan bu böyük mənalı tədbirin bütün təşkilatçılarına bir daha təşəkkürümü bildirirəm. Təltif edilənlərin hamısını, bizim bütün komandamızı təbrik edirəm, sizin hər birinizə ruh yüksəkliyi, möhkəm cansağlığı və bütün təşəbbüslərinizdə uğurlar arzulayıram!*

*Əl-Fərabinin böyük ömür yolunun başlandığı Qazaxıstan Torpağına, bu gözəl Yerdə yaşayan bütün insanlara ehtiramla təzim edirəm. Qazaxıstan xalqına xoşbəxtlik arzu edirəm. Şərqdə belə bir məsəl var: xoşbəxt olmaq istəyirsənsə, ol.*

*Sağ olun, yeni görüşlərədək!*

Qazaxıstanın mədəniyyət və idman naziri **Arıstanbek Muhamediulı** forumda çıxış edərək bildirib ki, MDB iştirakçısı olan ölkələrin Humanitar Əməkdaşlıq üzrə Dövlətlərarası Fondunun keçirdiyi forumlarda mədəniyyət, təhsil, elm, informasiya, idman və turizm sahələrində ən vacib məsələlər müzakirə edilir. Nazir MDB çərçivəsində elmi və humanitar əməkdaşlıqda Azərbaycanın rolunu xüsusi qeyd edib və akademik Nərgiz Paşayevanın bütövlükdə dünya elminə, mədəniyyətinə, sivilizasiyalararası dialoqun inkişafına verdiyi böyük töhfəyə görə ona minnətdarlığını bildirib. O deyib: *“Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti Nərgiz xanım da qlobal miqyaslı şəxsiyyətdir. Biz bunu böyük fəxr hissi ilə söyləyirik. Nərgiz xanımın “Birlik ulduzları” mükafatı ilə təltif olunması bir daha təsdiqləyir ki, onun həm Azərbaycan elminin, mədəniyyətinin, həm də dünya sivilizasiyasının inkişafında böyük xidmətləri var. Akademik Nərgiz Paşayevanın fəaliyyətini qiymətləndirmək bizim üçün böyük şərəfdir. Xüsusi olaraq qeyd etmək istəyirəm ki, Azərbaycan elmi, mədəniyyəti və təhsili yüksək səviyyədədir”.*

MDB iştirakçısı olan ölkələrin Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondunun (DHAF) İdarə Heyətinin sədri, Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı səfiri **Polad Bülbüloğlu** müasir dünyada belə forumların keçirilməsinin əhəmiyyətindən danışaraq bildirib ki, ümumi qloballaşma və texnologiyaların sürətli inkişafı fonunda humanitar əməkdaşlıq məsələləri daim diqqət mərkəzində olmalıdır. Bu baxımdan birgə mədəni layihələrin həyata keçirilməsi müntəzəm xarakter alıb. Postsovet məkanında humanitar əməkdaşlığın miqyasının genişləndirilməsi modeli sağlam düşüncəli insanların diqqət mərkəzindədir. Diplomat MDB iştirakçısı olan ölkələrin yaradıcı və elmi ziyalılarının forumunun həyata keçirdiyi layihələr barədə də ətraflı məlumat verib.

Azərbaycan nümayəndə heyətinin rəhbəri, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik **Urxan Ələkbərov** forumun işinə uğurlar arzulayaraq deyib ki, bu cür tədbirlər Birlik ölkələri arasında elm və təhsil sahəsində əlaqələrin inkişafı, təcrübə mübadiləsi üçün geniş imkanlar yaradır. O vurğulayıb ki, bu baxımdan Astana Forumunu elm xadimlərinin, yaradıcı ziyalıların ünsiyyət platforması adlandırmaq olar.

Qeyd edək ki, beynəlxalq “Birlik ulduzları” mükafatı 2009-cu ildə MDB iştirakçısı olan ölkələrin Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondu tərəfindən təsis edilib. Mükafat elm və təhsil, mədəniyyət və incəsənət, humanitar fəaliyyət sahələrində nailiyyətlərə görə hər respublikadan bir nümayəndəyə verilir. Laureatların irəli sürülməsi prosesi MDB ölkələrindən olan görkəmli alimlərin, dövlət və ictimai xadimlərin daxil olduğu beynəlxalq münsiflər heyəti tərəfindən həyata keçirilir.

Budəfəki forum Qazaxıstan Mədəniyyət və İdman Nazirliyinin və MDB iştirakçısı olan ölkələrin Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondunun təşkilati dəstəyi ilə keçirilib.

Astanada keçirilən budəfəki forumda Belarus Respublikasının Brest şəhəri 2019-cu il üçün MDB-nin mədəniyyət paytaxtı elan edilib.

# Ombudsmanların XV Bakı Beynəlxalq Konfransının Bəyannaməsi qəbul edilib



İyunun 21-də “Hüquq bərabərliyinin təmin olunmasında və təşviqində milli insan hüquqları təsisatlarının rolu” mövzusunda Ombudsmanların XV Bakı Beynəlxalq Konfransı başa çatıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın insan hüquqları üzrə müvəkkili (ombudsman) Elmira Süleymanova və Pakistanın qadınların təcavüz hallarından müdafiəsi üzrə federal müvəkkili Kaşmala Tariq çıxış edərək konfransda olduqca məhsuldar müzakirələrin aparıldığını, faydalı təkliflərin irəli sürüldüyünü diqqətə çatdırıblar. Bildirilib ki, ayrı-seçkiliyin bütün formaları insan hüquqlarının pozulmasına səbəb olur. Hüquq bərabərliyi insan hüquqlarının ali prinsipi hesab edilməlidir. Hüquqi, demokratik və vətəndaş cəmiyyəti quruculuğu yolunu tutan dövlətlərdə insan hüquq və azadlıqları milli prioritet məsələdir.

Konfransın yekununda Bəyannamə qəbul edilib.

Sənəddə bərabərlik və ayrı-seçkiliyə yol verilməməsi prinsiplərinin təbliğinə, dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxslər tərəfindən buna əməl edilməsinə dəstəyin verilməsi, BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə çatmaq üçün iqtisadi və hüquqi inkişafın dəstəklənməsi, ədalətli bir dünya üçün davamlı tərəqqinin, sosial inkişafın və ətraf mühitin qorunmasının təşviqinin və heç kəsin bu inkişafdan kənarda qalmaması üçün birgə fəaliyyətin zəruriliyi, ombudsmanların, milli insan hüquqları təsisatlarının bərabərlik və ayrı-seçkiliyə yol verilməməsi prinsiplərinə əməl edilməsi məqsədilə monitorinq və qiymətləndirmənin aparılmasında, vətəndaş cəmiyyətinin bu prinsiplərin təbliği prosesində yaxından iştirakının təşviqinin, qeyri-hökumət təşkilatlarını, kütləvi informasiya vasitələrini cəlb etməklə birgə tədbirlərin keçirilməsinin önəmi kimi məsələlər öz əksini tapıb.

Həmçinin Bəyannamədə universal və regional beynəlxalq təşkilatlarla, BMT və onun ixtisaslaşdırılmış təsisatları ilə, Avropa Şurası, Avropa İttifaqı, ATƏT və digər təşkilatlarla, həmçinin milli insan hüquqları qurumları, saziş qurumları ilə əməkdaşlığın genişləndirilməsi və hüquq bərabərliyinin təmin olunmasına yönəlmiş birgə layihələrin təşviq olunması, hüquqların bərabər temininə təhlükə yaradan halların, o cümlədən müharibə, hərbi münaqişə, soyqırımı, terrorizm, ksenofobiya və islamofobiya hallarının qarşısının alınması, onların dinc yolla həll olunması və nəticələrinin aradan qaldırılmasına yönəlmiş çevik proqramların hazırlanması və dövlət tərəfindən həyata keçirilən tədbirlərə, beynəlxalq təşəbbüslərə dəstək verməklə milli insan hüquqları təsisatlarının, vətəndaş cəmiyyətinin, bütün əhali qruplarının imkanlarının səfərbər edilməsi, əsas insan hüquqlarının, vətəndaş, siyasi, iqtisadi, sosial, mədəni, o cümlədən kollektiv hüquqların hər hansı bir əlamətə görə heç bir ayrı-seçkiliyə yol vermədən hərtərəfli təmin olunması sahəsində fəaliyyətin əlaqələndirilməsi məsələləri də yer alıb.

# “Azərbaycanın dövlət-din modeli: əsas istiqamətlər” mövzusunda regional konfrans işə başlayıb





İyunun 21-də Gədəbəydə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə “Azərbaycanın dövlət-din modeli: əsas istiqamətlər” mövzusunda ikigünlük regional konfransın açılışı olub.

AZƏRTAC xəbər verir ki, konfransın birinci hissəsində DQİDK-nın və rayon icra hakimiyyətinin məsul işçiləri, Qafqaz Müsəlmanları İdarəsinin bölgə üzrə səlahiyyətli nümayəndəsi, Gədəbəy Rayon İcra Hakimiyyəti başçısı yanında Dini İşlər üzrə Komissiyanın üzvləri, dini icma sədrləri, din xadimləri, gənclər və ictimaiyyət təmsilçiləri iştirak ediblər.

Konfransı açan Gədəbəy Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Qüdrət Paşayev son illər respublikamızın bütün bölgələrində olduğu kimi, Gədəbəydə də dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği istiqamətində görülən çoxsaylı işlərdən danışıb. Bildirilib ki, XIX əsrin 30-cu illərindən etibarən Çar Rusiyasının milli ucqarlarda həyata keçirdiyi müstəmləkəçilik siyasətinə uyğun olaraq imperiya ərazisinin ayrı-ayrı vilayətlərindən bir çox etnik və dini qrupların, eləcə də azsaylı xalqların nümayəndələri olan malakanlar, duxaborlar, bapdistlər və başqalarının qədim yurd yerlərimizdən olan Gədəbəyə köçürülməsi başlanıb. Həmin insanlar bu gün adı rayonun Novosaratovka, Novoivanovka, Slavyanka kimi tanınan kəndlərində məskunlaşdırılıblar. Həmçinin XIX əsrin ikinci yarısından başlayaraq rayonda əlvan metallurgiyanın və mədən sənayesinin inkişafı ilə bağlı olaraq çoxsaylı alman iş adamları və onların ailə üzvləri məskunlaşıblar. Nəticədə, qısa zamanda Gədəbəyin dini və etnik mənzərəsində xeyli dəyişiklik yaranıb.

Diqqətə çatdırılıb ki, bu gün İslam Gədəbəy sakinlərinin əsas dini olmaqla yanaşı, rayonda vaxtilə qurulmuş bütün dini məbədlərə və inanc yerlərinə hörmətlə yanaşılır və həmin ibadət yerləri ölkəmizin tolerant mədəniyyətinin, eləcə də tarixi maddi irsimizin dəyərli hissəsi kimi qorunur. Hazırda Gədəbəy rayonunda 6 məscid, 4 müsəlman dini icması və 1 rus icması fəaliyyət göstərir. İnsanların, xüsusən azsaylı etnik və dini qrupların üzvlərinə özlərinin adət-ənənələrini və dini ayinlərinin icrası üçün hər cür şərait yaradılır.

Konfransda çıxış edən DQİDK-nın sədri Mübariz Qurbanlı ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra respublikamızda dinə münasibətin tamamilə dəyişdiyini, ölkədə milli-mənəvi dəyərlərimizə, dinimizə hər zaman hörmət və qayğı ilə yanaşıldığını diqqətə çatdırıb. O, bu siyasətin hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib. Prezident İlham Əliyevin sərəncamı ilə 2017-ci ilin ölkəmizdə “İslam həmrəyliyi ili” elan olunmasının müasir dövrün çağırışlarını özündə ehtiva etdiyini vurğulayan M.Qurbanlı Azərbaycanın İslam mədəni irsinin yaranması və qorunub saxlanılmasında önəmli məkanlardan biri kimi tanındığını deyib.

Komitə sədri qeyd edib ki, bu gün dünyada baş verən neqativ hadisələrin fonunda bu dəyərlərin böyük önəm daşıdığının şahidi oluruq. Din pərdəsi altında insanlar arasında təfriqə salmaqla xaos yaratmaq xoşagəlməz reallığa çevrilib. Radikal dini təşkilat yaratmaq və yaxud onlara maddi-texniki dəstək verməklə öz məkrli niyyətlərini həyata keçirməyə çalışanlar müsəlman dünyasında qarşıdurmanı dərinləşdirməyə, İslam dünyasını zəiflətməyə və yekun nəticədə coğrafi baxımdan böyük strateji əhəmiyyət daşıyan ərazilərdə hegemonluğa cəhd göstərirlər. Ona görə də bu gün müsəlman dünyasında din amilindən istifadə edərək yaradılan qarşıdurmaların qarşısını almaq üçün alternativ yollar arayıb tapmağa indi daha çox ehtiyac var. Bu yol isə dini tolerantlığın, birgəyaşayışın, multikultural dəyərlərin, eyni zamanda, müsəlmanlar arasında həmrəylik ideyasının təbliğ və təşviq olunmasından keçir.

Mübariz Qurbanlı çıxışında istər qeyri-səmavi, istərsə də səmavi dinlərin keçdiyi tarixi inkişaf yoluna nəzər salıb, dinlərin daxilindəki məzhəb və təriqət ayrılıqlarını, eləcə də ayrı-ayrı dinlər arasındakı mövcud münasibətləri şərh edib.

İştirakçılara İslam tarixi və coğrafiyası haqqında maraqlı məlumatlar verilib. Eyni zamanda, bu gün İslam aləmində baş verən siyasi proseslər, böyük siyasi-ideoloji və hərbi güc mərkəzləri tərəfindən İslam ölkələrində yaradılmış süni münaqişələr, bu cür hadisələrin İslam dininə mənsub xalqların tarixi irsinə, maddi-mədəni və mənəvi dəyərlərinə, eləcə də müasir inkişafına vurduğu böyük ziyanlar konfrans iştirakçılarının diqqətinə çatdırılıb.

“Ölkəmizdə yaşayan hər bir vətəndaşın etiqad azadlığı Azərbaycan Respublikasının ali hüquqi sənədi olan Konstitusiyada təsbit edilib. Din dövlətdən ayrı olsa da, dövlət-din münasibətləri Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq konvensiyalarla və ölkəmizin mövcud qanunvericiliyi ilə tənzimlənir. Bununla yanaşı, Azərbaycan dövləti və Prezident İlham Əliyev İslam dininə, eləcə də ölkəmizdə tarixən mövcud olan bir çox dinlərə, həmin dinlərlə bağlı müqəddəs məkanlara tarixi, maddi-mədəni irsin bir hissəsi kimi yanaşır və bu məkanların təmir edilməsinə, mənəvi dəyərlərin geniş təbliğinə daim dəstək verir”, - deyə M.Qurbanlı qeyd edib.

Qafqaz Müsəlmanları İdarəsinin nümayəndəsi, Gədəbəy şəhəri “Cümə” məscidi dini icmasının sədri və imamı Rövşən Mustafayev regionlarda keçirilən bu cür konfransların məqsədinin Azərbaycanın müxtəlif bölgələrində cəmiyyətin, xüsusilə də gənc nəslin ənənəvi dini və milli dəyərlərimiz, bu dəyərlərin ümdə prinsipləri haqqında doğru və sağlam mənbələrə əsaslanan biliklərlə təmin olunmasından, dini mühitdə radikallığa meyilin səbəbinin öyrənilməsi, dəyərləndirilməsi və onun qarşısının alınması üçün səmərəli metodların tapılmasından, bu sahədəki kompleks tədbirlərin səmərəliliyinin daha da artırılmasından ibarət olduğunu diqqətə çatdırıb. Bildirilib ki, son illərdə respublikamızın bütün bölgələri kimi, Gədəbəy də hər bir sahədə özünün müasir inkişaf dövrünü yaşayır. Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində rayonun bir çox dini-tarixi memarlıq abidələri əsaslı şəkildə yenidən qurulub.

Sonda iştirakçılara Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən çap olunan kitablar paylanılıb.

Regional konfrans iyunun 22-də işini ikinci panel iclasla davam etdirəcək.




# XXI Dünya çempionatı

**DÇ-2018-in TƏQVİMİ**

**22 iyun**

D qrupu
19:00 **Nigeriya - İslandiya**
*Volqoqrad*

E qrupu
16:00 **Braziliya-Kosta Rika**
*Sankt-Peterburq*
22:00 **Serbiya-İsveçrə**
*Kaliningrad*



# Əlvida, PERU

**Danimarka - Avstraliya - 1:1**
*Qollar: Kristian Eriksen, 7 - Mayl Yedinak, 39 (penalti)*
*Samara, "Kosmos Arena"*

Samaranın "Kosmos" arenası mundialda daha bir oyuna evsahibliyi etdi. Danimarka-Avstraliya matçı ilə C qrupunda 2-ci tura start verildi. Matçdan öncə digər şəhərlərdə olduğu kimi, Samarada da əsl futbol bayramı yaşanırdı. Sosial şəbəkələrdə paylaşılan şəkillərdə və bir sıra xarici KİV nümayəndələrinin "Facebook"da etdikləri canlı yayımlarda diqqətçəkən görüntülər var idi. Danimarkalı və avstraliyalı azarkeşlərin bir-birilərinin ünvanlarına maraqlı şüarlar səsləndirdiklərini və bundan zövq aldıqlarını görmək olurdu.

Danimarka görüşü qazanacağı təqdirdə 1/8 final mərhələsini təmin etmiş olurdu. Nəzərə alsaq ki, qrupda sonuncu turda rəqib Fransa seçməsi olacaq, Danimarka millisi nə olursa-olsun, bu matçdan qalib ayrılaraq işi həmin qarşılaşmaya buraxmaq istəmirdi.

İspaniyalı baş hakim Antonio Mateu Lahozun start fitindən sonra matça daha sürətli başlayan tərəf Skandinaviya təmsilçisi oldu. Danimarkalılar hücumları cinahlardan qurmağa üstünlük verirdilər. Eyni zamanda uzun ötürmələrlə Avstraliya seçməsində müdafiənin mərkəzindəki boşluqdan istifadə etməyə çalışırdılar. Belə epizodlardan birində nominal meydan sahibləri istədiklərinə çatdılar. 7-ci dəqiqədə Kristian Eriksen vurduğu qolla hesabı açdı.

Qoldan sonra tədricən oyunu meydançanın rəqibə aid hissəsində quran Avstraliya qısa ötürmələrlə müdafiə xəttini yarmağa çalışırdı. Lakin güclü pressinqlə üzləşən Avstraliya seçməsi istədiyi oyunu nümayiş etdirə bilmirdi. İlk hissənin Danimarka millisinin xeyrinə başa çatacağı gözləndiyi bir vaxtda Avstraliya penalti vurmaq imkanı qazandı. Belə ki, standart vəziyyətdən ötürülən top rəqib müdafiəçinin əlinə dəydi. Videotəkrara (VAR) baxdıqdan sonra ispaniyalı referi 11 metrlik nöqtəni göstərdi. Zərbəni dəqiq yerinə yetirən Mayl Yedinak hesabda tarazlığı bərpa etdi.

Fasilədən sonra hər iki tərəfin qol vurmaq üçün imkanları olsa da, bundan yararlana bilmədilər.

**Fransa - Peru - 1:0**
*Qol: Mbappe, 34*
*Yekaterinburq, Mərkəzi stadion*

İyunun 21-də Fransa-Peru matçı ilə C qrupunda 2-ci tura yekun vuruldu. Hər iki komandanın heyətinə nəzər yetirdikdə fransızların aşkar üstün olduqlarını söyləmək olardı. Onu da qeyd edək ki, çempionatın favoritləri sırasında yer alan Fransa yığmasının son görüşlərdə nümayiş etdirdiyi futbol heç də ürəkaçan deyil. Bunun nəticəsidir ki, baş məşqçi Didye Deşam futbolçu seçimlərinə və oyun üslubuna görə tənqid hədəfinə məruz qalıb. Görünən odur ki, DÇ-2018-də Fransa millisi ancaq futbolçuların fərdi ustalıq keyfiyyətinə görə nəsə edə bilər. Elə Peru ilə qarşılaşmada bunun növbəti dəfə şahidi olduq.

Birləşmiş Ərəb Əmirliklərini təmsil edən baş hakim Mohammed Abdulla Hassanın start fitindən sonra oyuna perulular daha sürətli başladılar. Hətta vəziyyət o yerə çatmışdı ki, ilk 7 dəqiqə ərzində Peru millisinin qapıçısı Pedro Qalleseyin əlinə top belə dəyməmişdi. Hücumlarını sağ cinahdan quran Peru yığması Luis Advinkula və Andre Karrilyo ilə Fransa qapısı qarşısında cox ciddi təhlükələr yaratdılar. Lakin təcrübəsizlik və həyəcan qol epizodlarında Peru seçməsinə çox ciddi problemlər yaratdı. Ancaq buna baxmayaraq, meydançanın mərkəzində tətbiq edilən pressinq fransızların normal hücum qurmağına imkan vermədi.



**C qrupu**

| Komandalar | O | Q | M | H | X |
|---|---|---|---|---|---|
| Fransa | 2 | 2 | 0 | 0 | 6 |
| Danimarka | 2 | 1 | 0 | 1 | 4 |
| Avstraliya | 2 | 0 | 1 | 1 | 1 |
| Peru | 2 | 0 | 2 | 0 | 0 |

Bir qədər sonra Peru yığmasında yorğunluq özünü göstərməyə başladı. Meydançanın mərkəz xəttində ötürmələrdə ciddi səhvlərə yol verildi. Bunun nəticəsində Fransa millisinin heyətində Pol Poqba, Nqolo Kante mərkəz xəttini rahat keçərək Antuan Qrizmann və Kilian Mbappeyə ideal ötürmələr verirdilər. Belə epizodlardan biri 34-cü dəqiqədə qolla tamamlandı. Qapıçının dəf etdiyi topu Mbappe təkrar zərbə ilə boş qapıya göndərdi.

İkinci hissəyə fransızlar ilk hissədən fərqli olaraq daha sürətli başladılar. Oyunu meydançanın rəqibə aid hissəsində qısa ötürmələrlə qurmağa çalışan fransızların itirdikləri hər top qapıları qarşısında ciddi təhlükə ilə yadda qalırdı. Belə epziodlardan birində Fransa yığmasının bəxti gətirdi. Pedro Aqinonun uzaqdan vurduğu zərbə qapı tirinə dəyərək meydanı tərk etdi.

60-cı dəqiqədən sonra oyun əsasən meydançanın Fransaya aid hissəsində keçdi. Perulu futbolçular qol vurmaq üçün nə qədər cəhd göstərsələr də, ötürmələrdəki qeyri-dəqiqlik buna imkan vermədi.

Beləliklə, 1:0 hesabı ilə qalib gələn Fransa millisi xallarının sayını 6-ya çatdıraraq 1/8 finala vəsiqə qazandı. C qrupunda sonuncu turun nəticəsindən asılı olmayaraq Peru mundialla vidalaşdı.



# FİASKO...

**Argentina -Xorvatiya - 0:3**
*Qol: Rebiç, 54, Modriç, 81,Rakitiç, 90+1*
*Nijni Novqorod. Şəhər stadionu*

İyunun 21-də Argentina-Xorvatiya qarşılaşması ilə D qrupunda 2-ci tura start verildi. Bir tərəfdə ilk turda Nigeriyaya qalib gələrək mundiala qələbə ilə başlayan Xorvatiya millisi, digər tərəfdə isə İslandiya seçməsi ilə heç-heçə oynayaraq sürpriz nəticəyə imza atan və tənqidlərlə üzləşən çempionatın favoritlərindən sayılan Argentina yığması. Çox maraqlı və gərgin mübarizənin olacağı qarşılaşmanın adından bəlli idi.

"Əgər Sampaoli belə davam etsə, Argentinaya qayıda bilməyəcək. Günah futbolçularda deyil, məşqçidədir. Oyuna hazırlıq yox səviyyəsində idi. Boş vədlər dövrü arxada qalıb. Özünlə 25 məşqçi də gətirə bilərsən, amma işləmək lazımdır". Bu fikirləri bir neçə gün öncə Argentinanın əfsanəvi futbolçusu Maradona deyib. Həqiqətən oynanılan futbol, taxtiki gedişlər, futbolçu və mövqe seçimləri bu gün Argentina ictimaiyyətində baş məşqçi Xorxe Sampaolinin işindən narazılığı ifadə edir. Bundan əvvəl oynanılan hazırlıq matçlarında da baş məşqçi ciddi tənqidlərə məruz qalmışdı.

D qrupunun 1-ci turunda İslandiya seçməsi ilə qarşılaşmada baxımsız futbol 2-ci turda Xorvatiya ilə görüşdə də davam etdi.

Özbəkistanlı referi Ravşan İrmatovun start fitindən sonra Argentina millisi oyuna daha sürətli başlamaq istəsə də, meydançanın mərkəzində ciddi təzyiqlə üzləşdi. Bu görüşdə xorvatlara 1 xal da sərf etdiyinə görə əsasən əks hücumlarda qol vurmaq taktikasını seçmişdilər. Əslində, ilk hissədə istədiklərinə, demək olar ki, nail oldular. Hətta hesabı açmaq üçün bir neçə epizoddan yararlana bilmədilər. Argentinalılar topa daha çox sahib olsalar da, real qol imkanları Xorvatiyada yetərincə idi. Bütün cəhdlərə baxmayaraq, ilk hissə qolsuz başa çatdı.

**D qrupu**

| Komandalar | O | Q | M | H | X |
|---|---|---|---|---|---|
| Xorvatiya | 2 | 2 | 0 | 0 | 6 |
| Argentina | 2 | 0 | 1 | 1 | 1 |
| İslandiya | 1 | 0 | 0 | 1 | 1 |
| Nigeriya | 1 | 0 | 1 | 0 | 0 |

Fasilədən sonra Argentina millisi qapıçısı Villi Kabalyeronun (54-cü dəqiqə) kobud səhvindən sonra qol buraxdı.

Bundan sonra özlərini itirən aregntinalılar kəsərsiz hücumlar edir, meydançanın mərkəzində kobud səhvlər buraxırdılar. Belə səhvlərdən birində 81-ci dəqiqədə Luka Modriç uzaqdan vurduğu mükəmməl qolla hesab arasındakı fərqi 2 topa çatdırdı. 91-ci dəqiqədə isə İvan Rakitiç görüşdə son nöqtəni qoydu-3:0.

Beləliklə, 3:0 hesabı ilə qələbə qazanan xorvatlar xallarının sayını 6-ya yüksəldərək 1/8 finala vəsiqə qazandılar. Argentina millisinin işi isə möcüzələrə qaldı.

D qrupunda 2-ci tura bu gün keçiriləcək Nigeriya-İslandiya matçı ilə yekun vurulacaq.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***



# Hakim Ronaldudan formasını istədi

**Mərakeş millisinin yarımmüdafiəçisi Nordin Amrabat dünya çempionatının qrup mərhələsində Portuqaliya ilə keçirilən oyunu dəyərləndirib, üstəlik baş hakim Mark Gigeri də tənqid edib.**

Futbolçu ABŞ-lı referin fasilədə yeganə qolun müəllifi olan Portuqaliya yığmasının kapitanı Kriştianu Ronaldudan formasını istədiyini bildirib: "Hakim Ronaldunun təsiri altında qalmışdı. Hətta fasilədə ondan formasını da istəyib. Bunu Pepe danışarkən eşitdim. Qəribə hərəkətdi. Bura dünya çempionatıdı, sirk deyil".

Amrabat qarşılaşmanın 30-cu dəqiqəsindəki mübahisəli epizoda da toxunub. O, penaltilərinin verilmədiyini iddia edib: "Rəqib yalnız müdafiə olunurdu. 5-6 real qol imkanımız oldu. Biz qələbəyə daha çox layiq idik. Hətta Ronaldu da meydanın özlərinə aid hissəsinə çəkilmişdi. O ki qaldı penalti epizoduna, hakim orda yanlış qərar verdi. Tez-tez VAR sistemindən danışırlar. Əgər istifadə etməyəcəklərsə, danışmağın heç bir mənası yoxdu".



# Neymar oynayacaqmı?

**Braziliya millisinin hücumçusu Neymar zədəsini sağaldıb. Federasiyanın "twitter" səhifəsində 26 yaşlı futbolçunun komanda ilə birlikdə məşqlərə başladığı qeyd olunub.**

Neymarın bu gün Kosta-Rika ilə oynanılacaq matçda meydana çıxmağa hazır olduğu bildirilir.

Qeyd edək ki, Braziliya-Kosta-Rika oyunu bu gün Bakı vaxtı ilə saat 16:00-da başlayacaq.

# On minlərlə perulunun "Yeni Lima"sı

**Perunun Rusiyadakı səfiri Luis Benhamin Çimoy Arteaqa milli komandanın azarkeşlərinin Rusiyadakı dünya çempionatına bu cür axınını gözləmirmiş. Bu barədə o, TASS agentliyinə bildirmişdir.**

Peru yığması iyunun 16-da Saranskda 1982-ci ildən bəri dünya çempionatının final mərhələsində ilk oyununu keçirmişdir. Mordoviya paytaxtına Danimarka yığması ilə oyuna (0:1) gəlmiş perulu azarkeşlərin sayı heyrətləndirici olmuşdur. Şəhərin hər bir yerində perulu fanatları görmək olar. Hətta sosial şəbəkələrdə Saranskını "Yeni Lima" adlandırmağa başlamışlar.

"Rusiyaya biz gözlədiyimizdən çox perulu gəlmişdir. Bilirdik ki, soydaşlarımızın dünya çempionatına marağı böyük olacaq. Çünki 36 il ərzində ilk dəfə komandamız turnirin final mərhələsinə vəsiqə qazanmışdır. Lakin reallıq bütün gözləntiləri üstələdi. Bizdə olan məlumata görə, Rusiyaya azı 22 min perulu gəlmişdir" - deyə səfir bildirmişdir.

# "Ya ruslara qalib gəlməliyik, ya da ölməliyik"

**Uruqvay yığmasının baş məşqçisi Oskar Tabares Rusiya komandası ilə keçiriləcək görüşlə bağlı gözləntilərini bölüşmüşdür. Dediyinə görə, o, ancaq qələbəyə ümid edir.**

"İndi biz Rusiya ilə oynayacağıq. Bu matçda qələbə qazanmalı, yaxud ölməliyik. Həmin oyunda yaxşı futbol nümayiş etdirərək qalib gəlmək istəyirik. Artıq yüksək səviyyədə oynadığımızı deyə bilərəm. Biz bu dünya çempionatında yaxşı formadayıq" - deyə Tabares Səudiyyə Ərəbistanı ilə oyundan sonra bildirmişdir.

Xatırladaq ki, həmin görüşdə cənubi amerikalılar səudiyyəliləri 1:0 hesabı ilə məğlubiyyətə uğratmışlar. Bu qələbədən sonra Uruqvay yığması Rusiya millisi ilə birlikdə 1/8 mərhələsinə vəsiqə qazanmışdır.



# Kalininqradda ayıltma məntəqəsinin yaradılması yerinə düşdü

**Kalininqradda futbol azarkeşləri üçün müvəqqəti ayıltma məntəqəsinin yaradılması özünü tam doğrultmuşdur. Bu barədə regionun səhiyyə naziri Aleksandr Kravçenko jurnalistlərə məlumat vermişdir.**

"Məlumdur ki, mərkəzi şəhər klinik xəstəxanasının bazasında sərxoş azarkeşlər üçün şöbə yaradılmışdır və o, səmərəli rejimdə işləyir. Oraya daxil olan adamlar müvafiq yardım alırlar" - deyə nazir bildirmişdir.

Kravçenkonun dediyinə görə, ayıltma məntəqəsinə yerləşdirilən azarkeşlər tibb işçiləri ilə münaqişə etmirlər və hətta yardıma görə personala minnətdarlıqlarını bildirirlər.

Xəbər verildiyi kimi, Kalininqradın dünya çempionatına hazırlığı çərçivəsində şəhərdə 30 çarpayılıq tibbi ayıltma məntəqəsi açılmışdır.



# KUPER istefaya göndərilir

**Misir Futbol Federasiyası yığmanın baş məşqçisi Ektor Kuperlə yollarını ayırmaq qərarına gəlib.**

Apasport.az saytının "Əl-Vətən" qəzetinə istinadən verdiyi xəbərə görə, federasiya rəhbərliyi və məşqçilər heyəti arasındakı qarşılıqlı razılaşmaya əsasən, müqaviləyə xitam veriləcək. Kuper iyunun 25-də Volqoqradda keçiriləcək Misir - Səudiyyə Ərəbistanı matçından sonra tutduğu postdan ayrılacaq.

Qeyd edək ki, Misir dünya çempionatının qrup mərhələsi çərçivəsində keçirdiyi hər iki oyunda (Uruqvay-0:1, Rusiya-1:3) məğlub olub.

# Seneqallı azarkeşlər yaponlardan örnək götürdü

**Yaponiya və Seneqal yığmalarının azarkeşləri Rusiyada keçirilən futbol üzrə dünya çempionatında öz milli komandalarının iştirakı ilə oyunlar başa çatdıqdan sonra tribunalardakı tullantıları yığışdırmışlar.**

Seneqallılar Moskvada "Otkrıtiye" stadionunda Polşa millisinə qalib gəlmiş, Yaponiya yığması isə Mordoviyanın paytaxtı Saranskda Kolumbiya komandasını məğlubiyyətə uğratmışdır.

BBC-nin xəbərinə görə, bu cür davranış yaponlar üçün ənənəvidir: final fitindən sonra fanatlar özləri ilə gətirdikləri paketləri çıxararaq tribunalarda atılmış stəkanları və digər tullantıları yığışdırmışlar. Bu ölkədə çalışan idman jurnalisti Skott Makintayr bildirir ki, bu cür yanaşma Yaponiya mədənəyyəti üçün ənənəvidir. Orada hər yer, o cümlədən futbol stadionu təmiz saxlanmalıdır. Ölkəyə gələn turistlərdən də idman arenalarında yerə atdıqları tullantıların yığışdırılması xahiş edilir.

Stadionun tribunalarını təmizləmək adəti hələ məktəbdə təməli qoyulan mədəniyyətin davamıdır: yaponiyalı uşaqlar təhsil müəssisəsinin siniflərini və dəhlizlərini yığışdırırlar.

# Tarix və müasirlik

## "Kaspi nəşrləri" seriyasından "XX əsr Azərbaycanın görkəmli dövlət quruculari" kitabı 100 illik zəngin dövlətçilik irsimizə sanballı töhfədir

Hər bir xalqı ucaldan, tarixini zənginləşdirərək gələcəyinə işıq saçan onun böyük şəxsiyyətləridir. Azərbaycanın yetirdiyi dühaları bugünkü və gələcək nəsillərə öz əzəmətləri ilə nə qədər yaxından tanıda bilsək, bu dövlətin sabahına görə məsuliyyətini bir o qədər dərindən dərk edən, qəlbi belə şəxsiyyətlərin qurduğu müstəqil Azərbaycan dövlətinə mənsubluq hissinin qüruru ilə döyünən şərəfli bir nəsil yetişdirmiş olarıq.




Tarixən o dövlət və cəmiyyətlər güclü hesab edilib ki, orada dövlətçilik irsi ilə onun varisliyi arasında qırılmaz vəhdət təmin olunub, milli ideyalar, amallar bir nəsildən digərinə ötürülüb. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və onun layiqli siyasi davamçısı - Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin milli dövlətçilik tariximizə bəxş etdiyi böyük dəyərlərdən biri də məhz budur.

Dövlət başçısının "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" 16 may 2017-ci il tarixli və "2018-ci ilin Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilməsi haqqında" 10 yanvar 2018-ci il tarixli sərəncamlarına əsasən, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü respublikamızda və onun hüdudlarından kənarda təntənə ilə qeyd edilir. Belə mühüm məqamda *"XX əsr Azərbaycanının görkəmli dövlət quruculari"* adlı sanballı nəşrin ərsəyə gətirilməsi mühüm elmi-mədəni hadisə ilə yanaşı, zəngin dövlətçilik tariximizdə xidmətləri olan dühaların cəmiyyətə daha yaxından tanıdılması, habelə 100 illik zəngin dövlətçilik irsimizin tədqiqi baxımından əhəmiyyətlidir.

Azərbaycanın XX əsrdə yaşamış görkəmli dövlət qurucularından bəhs edən kitabda həm Cümhuriyyət qurucularını, həm də onların ideyalarını praktik şəkildə reallaşdıran ulu öndər Heydər Əliyevin dövlətçilik irsinin paralel şəkildə təhlil edilməsi kitabın tarixi-elmi dəyərini, ensiklopedik əhəmiyyətini daha da artırır.

Nəfis tərtibatda çapdan çıxmış sözügedən kitabın cildində şəkilləri verilmiş şəxsiyyətlərin hər biri Azərbaycan xalqının böyüklüyünü özümüzə də, dünyaya da göstərən parlaq aynadır.

Milli dövlətçilik tariximizin ən ziddiyyətli, çətin sınaqlarla dolu ayrı-ayrı mərhələlərində yaşamış şəxsiyyətlərimiz haqqında belə kitabların nəşri tarixin və taleyin bizlərə böyük lütfüdür. Çünki Azərbaycan dövlətçiliyində rolu olmuş işıqlı simalar haqqında məlumatları böyük çətinliklər bahasına öyrəndiyimiz, çox zaman onlar haqqında tam məlumatsız qaldığımız zamanlar da olub. Bu mənada, "XX əsr Azərbaycanın görkəmli dövlət quruculari" kitabının hazırlanması ideyası tariximizin obyektiv araşdırılması və öyrənilməsi baxımından son dərəcə əhəmiyyətlidir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümünə həsr olunmuş kitabda Azərbaycanın görkəmli dövlət qurucularının, siyasi xadimlərinin, ziyalılarının həyat və fəaliyyətindən bəhs olunur. Topluda ümummilli lider Heydər Əliyev, Cümhuriyyətin parlament sədri Əlimərdan bəy Topçubaşov, Baş naziri Fətəli xan Xoyski, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasını elan etmiş Milli Şuranın sədri Məhəmməd Əmin Rəsulzadə və Cümhuriyyət dövrünün bir sıra digər görkəmli xadimləri haqqında maraqlı məqalələr toplanmışdır.

Kitabın ön sözünün müəllifi, Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru professor Əli Həsənovun yazdığı kimi, konkret etnomədəni toplumun suveren hüquqi-siyasi birliyinin təşəkkülündən ötrü milli şüurun oyanışı, milli ideyanın mövcudluğu mühüm şərtdir. Bu amillərin təminatçısı qismində bir qayda olaraq, xalqın qabaqcıl nümayəndələri, uzaqgörən ziyalıları çıxış edirlər. Şəxsiyyətlərin rolu milli ideyanın gerçəkləşməsi, yeni, müstəqil dövlətin qurulması ilə tamamlanmır. Əksinə, bu mərhələdən sonra şəxsiyyətlərin rolu daha da böyüyür, genişlənir.

Mənalı ömür yolu, həyat və fəaliyyəti bu nəşrdə əksini tapmış şəxsiyyətlərin hər biri Azərbaycan tarixində sözlərini deyən, zamandan asılı olmayaraq daim ucalıqda dayanan insanlardır. Bu insanların dəyərli ideyalarının, parlaq irsinin öyrənilməsi cəmiyyət üçün mənəvi tələbat və gələcəyə gedən yolda bir növ mayakdır.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev *"Müasir Azərbaycan milli ideyanını təcəssümü kimi"* əsərində yazır: *"XİX XX əsrlərdə Azərbaycanda ictimai fikrin təkamülü milli inkişafın "türkləşmə, islamlaşma, avropalaşma" prioritetlərini əks etdirən formulu yaratmışdır. Bu gün məhz həmin ideyalar Azərbaycanın Dövlət bayrağının üç rəngində təcəssüm olunur. XİX-XX əsrlərin tarixi zaman kəsiyində C.Məmmədquluzadə, M.Ə.Sabir, Y.V.Çəmənzəminli, Ə.Topçubaşov, Ə.Ağayev, Ə.Hüseynzadə, H.Zərdabi, F.Xoyski, M.Ə.Rəsulzadə və digər milli klassiklər və görkəmli maarifçilər azərbaycanlıların milli mənlik şüurunun oyanışında başlıca rol oynamışlar. Onlardan bəziləri həm də müstəqil Azərbaycan dövlətinin yaradılmasının təməlini qoymuşlar".*

Filologiya elmləri doktoru Sona Vəliyevanın əməyi hesabına ərsəyə gələn, ideya müəllifi və redaktoru olan bu nəşr Azərbaycanda irs-varislik əlaqələrinin qorunub saxlanılması, tarixi şəxsiyyətlərin xalqın taleyindəki rolunun obyektiv dəyərləndirilməsi baxımından da mühüm əhəmiyyət kəsb edir.

İki fəsildən ibarət kitabın birinci fəsli müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin dövlətçilik irsinin ayrı-ayrı məqamlarına həsr olunmuşdur. Fəslin ilk məqaləsi ulu öndərin Azərbaycanın müstəqilliyi və milli dövlətçiliyi uğrunda mübarizə dövründəki fəaliyyətindən bəhs edir. *"Heydər Əliyevin Azərbaycanın müstəqilliyi və milli dövlətçiliyi uğrunda mübarizə dövründəki fəaliyyəti (yanvar 1990 - iyun 1993-cü il)"* adlı məqalənin müəllifi Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru professor Əli Həsənovdur. Məqalədə Azərbaycanın dövlət müstəqilliyinin əldə olunması, qorunub saxlanılması və milli dövlət quruculuğu proseslərində ümummilli lider Heydər Əliyevin misilsiz xidmətlərindən bəhs edilir. Ulu öndərin əsasən 1990-1993-cü illərdəki fəaliyyətinin elmi-tarixi təhlil edilməsi, Heydər Əliyevin liderlik keyfiyyətlərinə məhz bu dövrün prizmasından nəzər salınması, təsadüfi deyildir. Professor Əli Həsənov qeyd edir ki, ulu öndər Heydər Əliyevin xarizmatik liderlik keyfiyyətləri və milli iradəsi, siyasi uzaqgörənliyi, idarəçilik istedadı və dövlətə rəhbərlik bacarığı, qlobal düşüncə tərzi və s. keyfiyyətləri onun həyatının mühüm bir mərhələsini təşkil edən 1990-1993-cü illərdəki fəaliyyətində - Azərbaycanın müstəqilliyi və milli dövlətçiliyi uğrunda apardığı mübarizə dövründə daha qabarıq formada üzə çıxmışdır. Xüsusən, ötən əsrin 90-cı illərinin əvvəllərində - xalqın ciddi və taleyüklü problemlər qarşısında dayandığı bir dövrdə Heydər Əliyev öz həyatını təhlükə qarşısında qoyaraq milli mübarizə meydanına atılmışdır. Böyük strateq bu meydanda misilsiz tarixi xidmətlər göstərərək Azərbaycanın müstəqilliyinin, milli dövlətçiliyinin, milli birliyinin qorunub saxlanmasında, xalqın məhv olmaq təhlükəsindən xilas edilməsində böyük rol oynamışdır. Nə qədər ağır və çətin olsa da, həmin dövr Azərbaycan dövlətçiliyinin və milli tariximizin parlaq səhifələrini təşkil edir.

Kitabda Heydər Əliyevin müstəqil və demokratik Azərbaycan uğrunda apardığı mübarizənin, respublikanın ağır faciələrdən, siyasi, sosial-iqtisadi və mənəvi-psixoloji böhrandan qurtuluşu naminə üzərinə götürdüyü missiyanın müxtəlif dönəmləri nəzərdən keçirilir. Ulu öndərin həm sovet Azərbaycanına rəhbərliyi illərində gördüyü işlərə, xalq və dövlət qarşısındakı xidmətlərinə, həm Moskvadakı fəaliyyəti dövründə üzləşdiyi təqib və təzyiqlərə rəğmən apardığı Azərbaycan uğrunda davasına, Naxçıvanda keçən milli mübarizə mərhələsinə diqqət yönəldilir. Kitabda müstəqilliyin ilk illərində təsadüfi iqtidarların səriştəsiz siyasəti ucbatından Azərbaycanın üzləşdiyi xaosdan, vətəndaş müharibəsi təhlükəsindən, sosial-iqtisadi böhran məngənəsindən qurtuluşu üçün yerinə yetirdiyi tarixi missiyadan bəhs edilir. Vurğulanır ki, ulu öndər hakimiyyətə qayıdışından sonra daim xalqına arxalanaraq müdrik və səmərəli idarəçilik həyata keçirmiş, Azərbaycanın dayanıqlı milli inkişafını təmin etmişdir. Ölkəni dinamik inkişaf yoluna çıxarmış və öz adını xalqımızın dövlətçilik tarixinə müstəqil, demokratik Azərbaycan dövlətinin banisi və lideri kimi həkk etmişdir.

Bu mövzunun davamı olaraq kitabda professor Əli Həsənovun daha bir məqaləsi də öz əksini tapmışdır. *"Heydər Əliyevin dövlət quruculuğu təlimi: əsas xüsusiyyətlər və hədəflər"* adlanan məqalədə hüquqi dövlətin və vətəndaş cəmiyyətinin formalaşdırılıb inkişaf etdirilməsi, demokratik standartlara uyğun qanunvericilik sisteminin formalaşdırılması, vətəndaşların hüquq və azadlıqlarının, ölkənin ictimai-siyasi həyatında yaxından iştirakının təmin olunması ulu öndərin siyasi islahatlar strategiyasının əsas hədəfləri kimi vurğulanır. Plüralist siyasi sistemin inkişaf etdirilərək təkmilləşdirilməsi, cəmiyyətin intellektual, siyasi resurslarının müstəqil dövlət quruculuğu prosesinə cəlb edilməsi, ölkə vətəndaşlarının ümummilli ideoloji dəyərlər və ictimai-siyasi məqsədlər ətrafında birləşməsinin təmin olunması, demokratik siyasi mədəniyyətin formalaşdırılması və s. də bu hədəflər sırasına aid edilir.

Elmi-tarixi cəhətdən əsaslandırılır ki, məhz bu strategiya nəticəsində Azərbaycan keçid dövrünü müvəffəqiyyətlə başa vuraraq ictimai-siyasi, sosial-iqtisadi və mənəvi-ideoloji transformasiyanın yeni mərhələsinə, modernləşmə və dayanıqlı inkişaf dövrünə qədəm qoymuşdur. Kitabda Heydər Əliyevin azərbaycançılıq təlimindən, elmi-intellektual inkişafı təmin edən ideyalarından, ermənilərin Azərbaycana qarşı əsassız ərazi iddialarına qarşı hələ sovet dövründə - 1969-1987-ci illərdə apardığı mətin mübarizədən də bəhs edilir.

Kitabın ikinci fəsli isə müsəlman Şərqində ilk istiqlal bayrağını ucaltmış şəxsiyyətlər haqqındadır. Bu fəsil Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən olan, görkəmli siyasi və dövlət xadimi Fətəli xan Xoyski haqqında məqalə ilə başlayır. Burada Cümhuriyyətin ilk Baş naziri və daxili işlər naziri vəzifəsini tutmuş, bütün varlığını Cümhuriyyət ideyasına həsr etmiş və elə sonda da bu ideya uğrunda şəhid olmuş Fətəli xan Xoyskinin ömür yoluna ekskurs edilir. Bu böyük şəxsiyyətin öz istiqlal mübarizəsi ilə yaratdığı zəngin dövlətçilik irsi nəzərdən keçirilir.

Bu fəslin daha bir maraqlı məqaləsi Məhəmməd Əmin Rəsulzadənin həyat və fəaliyyəti haqqındadır. Burada M.Ə.Rəsulzadə sirf mədəniyyət hadisəsi olan Azərbaycan maarifçiliyinin böyük yetirməsi kimi təqdim edilir. Bildirilir ki, dünyada sürətlə cərəyan edən, tamamilə gözlənilməz nəticələr ortaya çıxaran hadisələr onu addım-addım Azərbaycan istiqlalının labüdlüyünə aparırdı. Onun seçimi "İnsanlara hürriyyət, millətlərə istiqlal" ideallarını gerçəkləşdirəcək bir mübarizə yolu oldu.

Kitabda XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycan xalqının istiqlal məfkurəsinin daşıyıcılarından olan Əlimərdan bəy Topçubaşovun həyat və fəaliyyəti haqqında da maraqlı tədqiqat materialları yer alır. Burada Əlimərdan bəyin fəaliyyəti həm hüquqşünas-vəkil, həm qəzet redaktoru, həm də diplomat kimi geniş təhlil edilir. Onun fəaliyyətinin bütün dövrlərində, o cümlədən 1918-1920-ci illərdə parlamentin sədri və xarici işlər naziri kimi Azərbaycanın Paris konfransına göndərilən sülh heyətinə başçılıq edəndə də azərbaycançılığı əsas ideya kimi fikir və qətiyyətində qoruduğu göstərilir. O, Fransada mühacirətdə olan Qafqaz siyasilərinin əsas liderlərindən idi. Azərbaycanın Avropadakı ilk təmsilçisi olaraq üzərinə düşən missiyanı elə şərəflə, ləyaqətlə yerinə yetirdi ki, yüzilliklər keçsə belə, adı yaddaşlardan silinməyəcək. Kitabda qeyd edildiyi kimi, Topçubaşov şəxsiyyəti, onun zəngin irsi bu gün də müstəqil Azərbaycanın yoluna işıq salmaqdadır.

Nəşrdə Azərbaycanın "İstiqlal bəyannaməsi"ni ilk imzalamış şəxsiyyət haqqında da söhbət açılır. Bu, Cümhuriyyətin qurucularından biri, istedadlı publisist, bacarıqlı həkim, savadlı müəllim, tərcüməçi, ən əsası isə bütün varlığı ilə millətinə, torpağına bağlı olan, onu sevən Həsən bəy Ağayevdir. Kitabda Milli Şuranın və Azərbaycan parlamenti sədrinin müavini kimi Həsən bəy Ağayevin həyat və fəaliyyəti haqqında çox maraqlı faktlar əksini tapmışdır. Kitabdan oxuyuruq ki, aprel işğalından sonra Tiflisə getmək məcburiyyətində qalan Həsən bəy Ağayev 13 iyun 1920-ci ildə böyük ümid və həyəcanla Qafqaz İslam Ordusunun komandanı Ənvər paşaya məktub yazaraq rus ordusunun Azərbaycandan çıxarılması üçün ondan xahiş edirdi. Lakin çox keçmir ki, kommunistlər bu məktubdan sonra 1920-ci ilin 19 iyulunda onu erməni qatillərinin əli ilə qətlə yetirirlər. Sovet rejimi Həsən bəyin ailəsinə də olmazın əzablar yaşadırdı. Hətta qızları ailə qurduqdan sonra belə, bu təzyiq və təqiblər davam etdirilirdi.

Nəşrdə Azərbaycan Xalq Cümhuriyyətinin hökumət rəhbərlərindən olan Nəsib bəy Yusifbəyli barəsində maraqlı məlumatlar verilmiş, ömür yoluna qısa nəzər salınmış, gördüyü işlərdən bəhs edilmişdir. Burada Nəsib bəyin şəxsi həyatı, Nəriman Nərimanovla münasibətləri ilə bağlı diqqətçəkən faktlar öz əksini tapmışdır. Eyni zamanda, onun 1920-ci ilin mayında qətli ilə bağlı indiyə qədər müəmmalı qalmış məqamlara diqqət yönəldilmişdir. Bu qətlin milli hökumət nümayəndələrinə qarşı xüsusi amansızlığı ilə seçilən Əliheydər Qarayevin sifarişi ilə törədilə biləcəyi ehtimalı əsaslı hesab edilmişdir.

Bu kitab 100 illik hərb tariximizin, Azərbaycan Ordusunun tarixi keçmişinin öyrənilməsi baxımından da əhəmiyyətlidir. Kitabda Azərbaycanın ilk və son ordu generalı, Cümhuriyyət hökumətində ardıcıl olaraq dörd dəfə hərbi nazir postunu tutmuş Səməd bəy Mehmandarov şəxsiyyəti haqqında ətraflı söhbət açılır, onun xalqımızın yetirdiyi qüdrətli sərkərdələrdən olduğu qeyd edilir. O, Azərbaycanın taleyində çox böyük rol oynamış, ilk müstəqil respublikamızın 40 min nəfərlik ordusunu formalaşdırmış, bununla da yüz illərdən sonra xalqın əzəli haqlarından sayılan özünümüdafiə imkanlarını yenidən özünə qaytarmış şəxsiyyətlərimizdən biri kimi səciyyələndirilir.

Eyni fikirlər çar Rusiyasında obrazlı şəkildə "Artilleriyanın Allahı" kimi tanınan general Əliağa Şıxlinskiyə də aiddir. Cümhuriyyət dövründə hərbi nazirin müavini postunu tutmuş Əliağa Şıxlinski Milli Azərbaycan Ordusunun təməl daşını qoyanlardandır. General Şıxlinski döyüş meydanlarındakı şücaətləri və artilleriya nəzəriyyəsinə gətirdiyi yenilikləri ilə hərb tarixinə parlaq səhifələr yazmışdır. O, Azərbaycan Xalq Cümhuriyyətinin mühüm dövlət təsisatları yaradılarkən milli qoşun hissələrinin təşkilində, müstəqil ordu quruculuğunda müstəsna xidmətlər göstərmiş, sonrakı dövrlərdə də hərbi elmin inkişafında, ölkənin silahlı qüvvələrinin formalaşdırılmasına töhfələr vermişdir. Onun yazdığı xatirələr də Azərbaycanın hərb tarixində ilk və yeganə hərbi memuardır.

Kitabda Cümhuriyyətin ilk ədliyyə naziri olmuş Xəlil bəy Xasməmmədova da yer ayrılmışdır. Qeyd edilir ki, dərin biliyə, yüksək intellektə malik Xəlil bəy digər Cümhuriyyət qurucularımız kimi bütün ömrünü, bilik və bacarığını millətinin azadlığı uğrunda mübarizəyə həsr etmiş şəxsiyyətlərimizdən idi. Azərbaycanda məhkəmə palatasının, onun əsasnaməsinin, fəaliyyət mexanizminin yaradılması məhz Xəlil bəy Xasməmmədovun adı ilə bağlıdır. O, aprel işğalından bir neçə gün sonra Nəriman Nərimanovun təkidi ilə Türkiyəyə keçmək məcburiyyətində qalmış, mühacirətdə də milli mübarizədən geri çəkilməmiş, qələmi ilə öz sözünü deməyə çalışmış, müxtəlif qəzet və jurnallarda siyasi məzmunlu məqalələrlə mütəmadi çıxışlar edərək siyasi publisistikanın təkrarsız nümunələrini yaratmışdır.

Kitab Cümhuriyyət dövründə müxtəlif vəzifələr tutmuş və Qarabağın general-qubernatoru olmuş Xosrov bəy Sultanov haqqında da maraqlı məlumatlarla zəngindir. Topluda Xosrov bəyin erməni daşnaklarına qarşı apardığı mübarizəsinə, Qarabağda, Zəngəzurda ermənilərin ərazi iddiası irəli sürdükləri digər yerlərdə Azərbaycanın suveren hüquqlarının bərpası naminə göstərdiyi igidliklərə diqqət yönəldilir. 1923-cü ildən sonrakı mühacirət həyatı dövründə onun apardığı milli mübarizədən bəhs edilir.

Kitabda həmçinin Cümhuriyyət tariximizdə özünəməxsus yer tutan görkəmli ziyalımız Ceyhun Hacıbəyli irsinə də yer ayrılmışdır. Yazıçı, publisist, tərcüməçi, diplomat, ictimai xadim, milli mədəniyyətimizin xaricdəki yorulmaz təbliğatçısı Ceyhun Hacıbəylinin həyat və yaradıcılığı milli dövlətçilik irsimizdə özünəməxsus yer tutur. Onun qələmə aldığı bütün yazılar - istər bədii əsərləri və publisistikası, istər elmi araşdırmaları və xatirələri, ictimai-siyasi və ideoloji cəhətdən çox dəyərlidir və bu gün də öz aktuallığını qoruyur. Ceyhun Hacıbəyli qələmindən çıxmış əsərlər maraqla oxunur və düşündürür. Onun yazılarını oxuduqca sanki tariximizi vərəqləyir, Azərbaycanın başına gətirilən müsibətləri görür, faciəli situasiyaların şahidi oluruq. Ceyhun hələ Bakıda yaşadığı illərdə böyük qardaşı, dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin bütün Şərq aləmində ilk operası olan "Leyli və Məcnun" əsərinin ərsəyə gəlməsində iştirak etmişdir. Onu sonralar Fransada yaşadığı illərdə fransız dilinə də çevirmişdi. Parisdə Üzeyir bəyin dünya şöhrətli "Arşın mal alan" operettasını tərcümə edərək "Femina" teatrında tamaşaya qoymuşdur. Mədəni irsimiz, ədəbiyyatımız, tariximiz və s. mövzularda müxtəlif səpkili məqalələr yazmışdır.

Nəşrə görkəmli pedaqoq, publisist, dramaturq, həkim, ictimai-siyasi xadim, Azərbaycan SSR-in ilk dövlət və hökumət başçısı Nəriman Nərimanov haqqında da məqalə daxil edilmişdir. Kitabda Cümhuriyyət qurucuları ilə bir arada onun haqqında da bəhs edilməsi, oxucuda qətiyyən sual doğurmamalıdır. Çünki bu nəşrin məqsədi tarixi ziddiyyətlərin aydınlaşdırılması deyil, Azərbaycan xalqının XX əsrdə yetirdiyi, dövlət quruculuğumuzda rolu olan böyük şəxsiyyətlərin tanıdılmasıdır. Heç kimdə şübhə doğurmur ki, Nəriman Nərimanov xalqımızın azadlığı və müstəqilliyi uğrunda ardıcıl mübarizə aparan, bu yolda həyatını qurban verən böyük şəxsiyyətlərdən idi.

Kitabda xalqımızın yetirdiyi ən böyük düşüncə adamlarından olan Əli bəy Hüseynzadə haqqında təqdim olunmuş məqalə də böyük maraq doğurur. Qeyd edilir ki, millətə onun kimliyini xatırladan, Azərbaycanı özünə, öz məhvərinə yönəldən Əli bəy Hüseynzadə toplumun milli şüurunu sistemləşdirən bir dahidir. Bəhs etdiyimiz nəşr bu böyük fikir adamının zəngin irsinə də işıq salır.

Ensiklopedik səciyyə daşıyan kitabın ayrı-ayrı müəlliflər tərəfindən qələmə alınmış məqalələr toplusundan ibarət olması onun üstün cəhətlərindəndir. Bu, konkret şəxsiyyətlər haqqında bilgilərin, onların milli dövlətçilik tariximizdəki yeri və rolunun qısa mətn həllinin köməyi ilə aydın təhlilinə və oxucu tərəfindən asan qavranılmasına kömək göstərir.

*Nəşrdə haqqında söz açılan böyük tarixi şəxsiyyətlər haqqında zaman-zaman müxtəlif kitablar, məqalələr, hətta bədii əsərlər, filmlər təqdim olunub. Amma bu şəxsiyyətlərin dəyərli irsinin ümumi bir kitabda təqdim olunması ilk və uğurlu təşəbbüslərdən biridir. Bu baxımdan "XX əsr Azərbaycanın görkəmli dövlət quruculari" kitabını son illər ölkəmizdə nəşr olunmuş ən dəyərli kitablardan biri saymaq olar. Ümid edirik ki, müasir oxucu kitabda haqqında söhbət açılan böyük şəxsiyyətlərin işığında öz xalqının ucalığını daha aydın görə biləcək.*

***İsaxan VƏLİYEV,***
***Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondunun aparat rəhbəri, hüquq üzrə elmlər doktoru, professor***

# Sərhədçi xidmət zamanı ciddi xəsarət alsa da, döyüş tapşırığını yüksək səviyyədə yerinə yetirib





Dünən Dövlət Sərhəd Xidmətinin sərhəd qoşunlarının Göytəpə sərhəd dəstəsinin Cəlilabad rayonunun Bayxanlı kəndinin yaxınlığındakı sərhəd zastavasının xidməti ərazisində dövlət sərhədinin pozulmasına cəhd edilmişdir.

Sərhəd naryadı tərəfindən İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində silahlı şəxslərin hərəkəti aşkar olunmuş və qarşısı alınmışdır.

Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsində olan sərhəd naryadının qanuni tələbinə və xəbərdarlıq atəşinə tabe olmayan sərhəd pozucuları tərəfindən sərhəd naryadına qarşı silah tətbiq edilmişdir. Baş vermiş hadisə zamanı sərhəd naryadının başçısı Balakən rayonundan həqiqi hərbi xidmətə çağırılmış əsgər Kurupov Ramazan Məmməd oğlu döş qəfəsi, əl və ayaq nahiyələrindən güllə yaraları almışdır. Dövlət sərhədini pozmağa müvəffəq ola bilməyən sərhəd pozucuları geri qaçmışlar.

Əsgər R.Kurupov digər sərhəd naryadı tərəfindən ilkin tibbi yardım göstərildikdən sonra təcili olaraq Cəlilabad Rayon Mərkəzi Xəstəxanasına təxliyə edilmişdir. Xəstəxananın və DSX hərbi hospitalının hadisə ilə əlaqədar Cəlilabad rayonuna ezam olunmuş həkimləri tərəfindən əsgər təcili əməliyyat olunmuşdur.

Hadisədən dərhal sonra Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev və digər rəhbər vəzifəli şəxslər əraziyə gəlmiş, hadisə yerinə baxış keçirmiş, əməliyyat-axtarış tədbirlərinin davam etdirilməsinə dair zəruri tapşırıqlar vermişdir.

Dövlət Sərhəd Xidmətinin rəhbər heyəti, Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı, yerli hüquq mühafizə orqanlarının rəhbərləri Cəlilabad Rayon Mərkəzi Xəstəxanasında əsgər R.Kurupova baş çəkmiş, səhhətinin vəziyyəti ilə maraqlanmışlar.

Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev sərhədçi əsgəri təcili əməliyyat edərək onun həyatını xilas etmiş tibb heyətinə, həmçinin əsgərin əməliyyatı üçün qan vermiş DİN-in Cəlilabad rayon şöbəsinin əməkdaşlarına dərin minnətdarlığını bildirmişdir.

Dövlət Sərhəd Xidməti rəisinin əmri ilə əsgər Kurupov Ramazan Məmməd oğlu xidməti vəzifələrinin icrasında göstərdiyi şücaətə görə "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medal ilə təltif olunmuşdur.

Hadisə ilə əlaqədar zəruri tədbirlər həyata keçirilir. Fakt üzrə Hərbi Prokurorluq tərəfindən cinayət işi başlanılmışdır.

***"Azərbaycan"***

# Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən bölgələrdə vətəndaşların qəbulu davam edir.

AZƏRTAC xəbər verir ki, iyunun 21-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-leytenant Arzu Rəhimov Lənkəran şəhərindəki Heydər Əliyev Mərkəzində Astara, Lənkəran, Lerik və Yardımlı rayonlarından olan 30 vətəndaşı qəbul edib.

Qəbula gələn vətəndaşların müraciətləri əsasən veteran adı və vəsiqəsinin verilməsi, müddətli həqiqi hərbi xidmətə çağırılan gənclərin ailə vəziyyəti ilə əlaqədar daha yaxın hərbi hissələrdə xidmət göstərmələri, qurumun müvafiq şöbə və bölmələrində işə və ya həqiqi hərbi xidmətə qəbul və digər məsələlərlə bağlı olub.

General-leytenant Arzu Rəhimov hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib, qaldırılan məsələlərin qanunvericiliyin tələblərinə uyğun həlli barədə müvafiq strukturların rəhbərlərinə tapşırıqlar verib. Qəbul zamanı qaldırılan məsələlərin bir çoxu operativ surətdə həll edilib.

* * *

İyunun 21-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Gədəbəy şəhərində bölgə vətəndaşlarını qəbul edib.

Heydər Əliyev Mərkəzində keçirilən qəbulda komitə sədri Mübariz Qurbanlı Şəmkir, Ağstafa, Gədəbəy, Qazax və Tovuz rayonlarının sakinlərinin müraciətlərinə baxıb.

Vətəndaşlar əsasən dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, məscidlərin təmiri, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, məscidlərin dini təyinatlı kitablarla təmin edilməsi və digər məsələlərlə bağlı müraciət ediblər.

Müraciətlərin bir qismi yerindəcə öz həllini tapıb. Araşdırılmasına ehtiyac olan bir sıra məsələlərin qanunvericiliyə uyğun, operativ həlli üçün müvafiq tapşırıqlar verilib.

# "AzerTelecom" Bakı və regionlarda infrastrukturunu genişləndirir

Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral (backbone) internet provayder şirkəti "AzerTelecom" MMC Bakı və regionlarda malik olduğu infrastrukturunu genişləndirir.

Şirkət tərəfindən bu istiqamətdə şəbəkə yenilənməsi, infrastrukturun dayanıqlılığının daha da artırılması üçün müvafiq işlər həyata keçirilir.

Görülən tədbirlərin məqsədi müasir DWDM texnologiyasına əsaslanan şəbəkənin dayanıqlılığının və ötürmə həcminin daha da artırılması, internet servis provayderlərinə və korporativ müştərilərə təqdim olunan çeşidli telekommunikasiya xidmətlərinin keyfiyyətinin daha da yüksəldilməsi və eləcə də dünya informasiya və kommunikasiya texnologiyaları sahəsində yeni yanaşmaların ölkəmizdə tətbiqidir. Bu məqsədlə "AzerTelecom"artıq ölkə üzrə müxtəlif regionlarda texniki istiqamətli layihələr həyata keçirir ki, bu layihələrin icrası nəticəsində də şirkətin malik olduğu infrastruktur daha da möhkəmləndirilir, xidmət səviyyəsi isə artmaqdadır.

Şirkət tərəfindən həyata keçirilən tədbirlər korporativ müştərilərin təqdim olunan müasir telekom xidmətləri ilə etibarlı şəkildə təmininə şərait yaradır. "AzerTelecom" MMC-nin fiber-optik kabel şəbəkəsi Naxçıvan Muxtar Respublikası da daxil olmaqla Azərbaycanın bütün əsas bölgələrini və şəhərlərini əhatə edir. Şirkətin beynəlxalq şəbəkəsi isə etibarlı və nüfuzlu beynəlxalq tərəfdaşlarla əməkdaşlıq etməklə dünya üzrə bütün əsas telekommunikasiya hablarına birləşir.

Qeyd edək ki, "AzerTelecom" MMC Azərbaycanın dinamik şəkildə inkişaf edən telekommunikasiya operatorudur. Şirkət 2008-ci ildə təsis edilib və əsas səhmdarı Azərbaycanın ilk mobil operatoru "Bakcell" şirkətidir. "AzerTelecom" şirkəti internetin topdan satışı, ayrılmış kanal xidməti, mobil və stasionar telekommunikasiya şəbəkələrində informasiyanın daşınması, beynəlxalq tranzit, SİP telefoniya, FTTx (fiber optik xətt xidməti), Data mərkəz xidmətləri, VSAT xidmətləri, Korporativ şəbəkə, Backbone xidmətləri, GSM üzərindən ayrılmış xətt, VPN (virtual şəxsi şəbəkə), lokal VoİP, DDOS hücumundan müdafiə və digər xidmətlər təqdim edir.

*"Azərbaycan"*

## “Bakı Metropoliteni” QSC müxtəlif növ şüşələrin satın alınması üzrə *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi 20-dən (Əlaqələndirici şəxs: İlqar Qasımov telefon: 490-00-00) ala bilərlər.

**LOT-1. Müxtəlif növ şüşələrin satın alınması**

**İştirak haqqı - 100 manat**

**Hesabın adı:** “BAKI METROPOLİTENİ” QSC
**Hesab nömrəsi (IBAN):**
**AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN:** 1402871431
**Bankın adı:** “AZƏR TÜRK BANK” ASC (Mərkəz Filialı)
**Kod:** 501361
**VÖEN:** 9900006111
**Müxbir hesabı:** AZ02NABZ01350100000000022944
**SWIFT BIK:** AZRTAZ22

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 40 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 70 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **26 iyul 2018-ci il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **03 avqust 2018-ci il saat 18:00-a** qədər, Bakı şəhəri, M.Rəfili küçəsi, 20 ünvanına İcraya Nəzarət, kargüzarlıq və Təsərrüfat İşləri şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **06 avqust 2018-ci il saat 15:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

Replika

# Abad şəhərin bərbad bazarı






Cəlilabad şəhəri son 15 il ərzində daha da böyümüş və abadlaşmışdır. İnşa edilən yeni-yeni ictimai binalar, yaşayış evləri, salınan parklar, xiyabanlar, asfaltlanan küçələr, çəkilən yollar, qurulan işıqlandırma sistemi, əkilən müxtəlif növ dekorativ ağaclar, gül-çiçəklər indi bu Muğan şəhərinin hüsnünə xüsusi bir gözəllik verir. Cəlilabadın mərkəzindəki Heydər Əliyev seyrəngahı əhalinin ən çox xoşladığı istirahət yeridir. Yayın istisində buradakı fəvvarələr ürəklərə sanki su çiləyir, sərinlik gətirir. Axşam vaxtlarında isə seyrəngah daha qələbəlik olur.

Təəssüf ki, şəhərin mərkəzi bazarının bərbad vəziyyəti bu abadlığa, bu gözəlliyə əməlli-başlı xələl gətirir. Bazarda səliqəsizlikdir, antisanitariya, natəmizlik baş alıb gedir. Kənd təsərrüfatı məhsulları, sənaye malları ayaq altda, tozun-torpağın içində satılır. Bazarın köşklərinin əksəri kinolentlərdə gördüyümüz Asiya və Afrikanın geridə qalmış ölkələrindəki bazarların görkəmini yada salır. Ancaq iki yerdə - girəcək hissədə bir neçə su kranı qoyulmuşdur. Böyük əraziyə malik olan ticarət şəbəkəsinin digər yerlərində isə su kranına rast gəlmək olmur. Buraya gələn küçə asfaltlanmadığından yayda toz-torpaq, qışda palçıq dizə çıxır. Bazarın daxilindəki əksər ərazi də bu gündədir.

Bazar özəlləşdirilmişdir. Belə olduğu halda, bazarın sahibi ona daha çox diqqət yetirməlidir ki, alıcı və satıcılar yaradılan şəraitdən razı qalsınlar, rahatlıqla alış-verişlərini etsinlər. Sahibkarlara isə ölkədə hər cür şərait yaradılmışdır.

Məlumdur ki, sahibkarlar, xüsusilə bazar sahibləri vaxtilə çox ucuz, necə deyərlər, su qiymətinə özəlləşdirdikləri bazarlardan heç də az qazanc əldə etmirlər. Əldə etdikləri gəlirin müəyyən hissəsini obyektin abadlaşdırılmasına, səliqə-sahmanlı olmasına yönəltsələr, görəsən, nə olar? Axı bizim yerlərdə bazar hər bir şəhərin, rayonun vizit kartıdır. Adamlarda, xüsusilə qonaqlarda təəssürat həm də bazarla yaranır. Cəlilabad şəhərinin mərkəzi bazarı isə Ələt-Astara magistral yolunun buradan keçən hissəsinin təxminən 50 metrliyində yerləşir. Cənub bölgəsinə gedib-gələnlər arasında alış-veriş üçün buraya üz tutanlar az deyil. Bu səbəbdən bazar həmişə gurdur. Deyilənləri nəzərə alaraq tezliklə burada əsaslı dönüş, qayda-qanun, səliqə-sahman yaradılmalıdır.

***Seyran CAVADOV,***
***“Azərbaycan”***

## Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini 125 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 125 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Paravakar, Berd rayonunun Çinari kəndlərində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Azərbaycan Respublikasının Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Kəmərli, Qaymaqlı kəndlərində və adsız yüksəkliklərdə, Tovuz rayonunun Ağdam, Ağbulaq, Muncuqlu kəndlərində, Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub. Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Nəmirli, Şuraabad, Qaraqaşlı, Sarıcalı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qaraxanbəyli, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

# Beynəlxalq aləm
## HADİSƏLƏR, FAKTLAR

### Avropa Komissiyası Amerika rüsumlarına cavab olaraq tədbirlər gördü




Avropa Komissiyası ABŞ-ın polad və alüminiuma tətbiq etdiyi ticarət rüsumlarına cavab tədbirləri görmüşdür. Bu barədə “Rosbalt” agentliyi xəbər verir.

Məlumata görə, məhdudiyyətlər iyunun 22-dən qüvvəyə minəcək. Onlar 2,8 milyard dollar məbləğində Amerika mallarına şamil olunacaq və Vaşinqton rüsumları ləğv etməyənə kimi qüvvədə qalacaq. 25 faiz miqdarında rüsumlar polad və alüminium məhsulları, düyü, portağal şirəsi, araxis yağı, viski, siqaretlər və geyimə tətbiq olunacaq.

Xatırladaq ki, iyunun 1-dən ABŞ Ticarət Nazirliyi Avropa İttifaqı ölkələrindən idxal olunan polad və alüminiuma 25 faiz miqdarında, Kanadadan və Meksikadan gətirilən məhsullara isə 10 faiz miqdarında rüsum tətbiq etmişdir. Vaşinqton Çindən gətirilən mallara da 25 faiz miqdarında gömrük rüsumları tətbiq olunacağını elan etmişdir.

### KXDR amerikalı hərbçilərin cənazələrini ABŞ-a təhvil verdi



ABŞ 1950-1953-cü illər Koreya müharibəsi zamanı həlak olmuş 200-ə yaxın amerikalı hərbi qulluqçunun cənazəsini KXDR-dən təhvil almışdır. Bu barədə Amerika lideri Donald Tramp məlumat vermişdir.

“Biz həlak olmuş qəhrəmanlarımızın cənazələrini geri aldıq” - deyə ABŞ Prezidenti Minnesota ştatında mitinqdə çıxış edərkən bildirmişdir. Qeyd edək ki, cənazələrin qaytarılması barədə razılıq iyunun 12-də Sinqapurda ABŞ-KXDR sammiti zamanı əldə olunmuşdur.

### İndoneziyada Toba gölündə itkin düşənlərin sayı 192 nəfərə çatdı



İndoneziyanın Sumatra adasında gəminin qəzaya uğraması nəticəsində itkin düşənlərin sayı 192 nəfərə çatmışdır. Bu barədə İndoneziyanın Axtarış və xilasetmə üzrə milli agentliyinin (BASARNAS) başçısı Məhəmməd Səyqi məlumat vermişdir.

Onun dediyinə görə, indiyədək 18 nəfəri xilas etmək mümkün olmuşdur. Dörd nəfərin həlak olduğu bildirilir. İndoneziyanın Daxili İşlər Nazirliyinin nümayəndəsi Yusri Yunusun dediyinə görə, faciəli hadisə Şimali Sumatra əyalətindəki Toba gölündə baş vermişdir.

Bildirilir ki, Samosir rayonundan Simalunqun rayonuna yollanan “KM Sinar Bangun” gəmisi deşildikdən sonra batmışdır. İtkin düşənlərin axtarışına 5 xilasedici briqada göndərilmişdir.

Qəzaya səbəb kimi əlverişsiz hava şəraiti və gəminin həddən artıq yüklənməsi göstərilir.

### Ötən il Avropada terror aktlarının sayı 45 faiz artmışdır




2017-ci ildə Avropada əvvəlki illərlə müqayisədə terror hücumlarının sayı 45 faiz artmışdır. Bu barədə Avropolun hesabatında məlumat verilir.

Hesabatda qeyd olunur ki, əvvəlki illərdə sayı xeyli azalmış terror aktları ötən il 45 faiz artmışdır. Eyni zamanda terror hücumları qurbanlarının sayı 50 faiz azalmışdır.

2017-ci ildə Avropa İttifaqı ölkələrində 205 terror aktı törədilmiş, yaxud qarşısı alınmışdır. Belə hücumlar nəticəsində 68 nəfər həlak olmuş, 844 nəfər yaralanmışdır. Terror fəaliyyətində ittiham olunan 975 nəfər saxlanmışdır.

Sənəddə bildirilir ki, terror aktlarının böyük hissəsi (67 faiz) separatçılar tərəfindən törədilmişdir.


## “Bakı Sığorta” ASC-nin “Sığortalan və qazan” stimullaşdırıcı tirajlı lotereyanın birinci tirajının nəticəsi müəyyənləşib

Bakı Sığorta

20.06.2018-ci il tarixi saat 15:00-da “Bakı Sığorta” ASC-nin Bakı şəh., Yasamal ray., A.M.Şərifzadə küç. 315 C ünvanında yerləşən inzibati binasında “Sığortalan və qazan” adı altında keçirilən stimullaşdırıcı tirajlı lotereyanın birinci tirajının uduş fondu oynanılıb.

Lotereyanın qaydalarına əsasən birinci tirajda 01.03.2018-15.06.2018-ci il tarixlərində müvafiq sığorta məhsullarını əldə etmiş şəxslər iştirak etmişdir.

Birinci tirajın qalibləri aşağıdakı şəxslər olub:

**Əmlak sığortası məhsulu üzrə - PİP-MAN-10470/18 saylı sığorta şəhadətnaməsi üzrə sığortalı Feyzullayev Vaqif Səxavət oğlu 5000 (beş min) manat pul məbləği;**

**“Əmək qabiliyyətinin itirilməsi sığortası” məhsulu üzrə PA-N-000010/18 saylı sığorta şəhadətnaməsi üzrə sığortalı İslamzadə Elnur maksimal məbləğ 10000 (on min) manat olmaqla tirajın keçirilməsi tarixinə sığortalının kredit müqaviləsi üzrə kreditin qalıq borc məbləği.**

Uduşların verilməsi qaydası və müddəti “Azərbaycan” qəzetinin 25 may 2018-ci il tarixli nömrəsində dərc edilmişdir.


***Bakı Neft Energetika Kolleci tərəfindən Mədinə Daşqın qızı Kərimovanın adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Milli Məclisin deputatı İqbal Məmmədova əzizi
**EMİLİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi İsa Nəcəfov və Qasım Rəhimov Gəncə Apelyasiya Məhkəməsinin sədri Tapdıq Mahmudova anası
**MEHRİBAN XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Sumqayıt Şəhər Məhkəməsinin sədri Zeyqəm Hüseynov Gəncə Apelyasiya Məhkəməsinin sədri Tapdıq Mahmudova anası
**MEHRİBAN XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Mətanət Hacıyeva Həsənovlar ailəsinə əzizləri
**ORUC HƏSƏNLİNİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Təhsil Nazirliyinin rəhbərliyi və kollektivi Naxçıvan Müəllimlər İnstitutunun rektoru, əməkdar elm xadimi
**ORUC HƏSƏNLİNİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Gəncə İnzibati-İqtisadi Məhkəməsinin kollektivi Gəncə Apelyasiya Məhkəməsinin sədri Tapdıq Mahmudova anası
**MEHRİBAN XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Şəhər Səbail Rayon Məhkəməsinin sədri Ağamalı Qafarov və məhkəmənin kollektivi Gəncə Apelyasiya Məhkəməsinin sədri Tapdıq Mahmudova anası
**MEHRİBAN XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Tərtər Hərbi Məhkəməsinin kollektivi Gəncə Apelyasiya Məhkəməsinin sədri Tapdıq Mahmudova anası
**MEHRİBAN XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəhbərliyi və kollektivi Gəncə Apelyasiya Məhkəməsinin sədri Tapdıq Mahmudova anası
**MEHRİBAN MAHMUDOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

AMEA Naxçıvan Bölməsinin kollektivi Naxçıvan Müəllimlər İnstitutunun rektoru, AMEA-nın müxbir üzvü
**ORUC HƏSƏNLİNİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Şirvan Apelyasiya Məhkəməsinin kollektivi Gəncə Apelyasiya Məhkəməsinin sədri Tapdıq Mahmudova anası
**MEHRİBAN MAHMUDOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Dəmir Yolu və Metropoliten üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin mühəndis-pedaqoji kollektivi mərkəzin direktoru Həsən Bayramova əzizi
**KƏRBƏLAYİ MƏHƏMMƏDTAĞI MƏŞƏDƏLİ OĞLUNUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-63-82,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8685
Sifariş 1835